*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

24 may 2025-ci il №18 (9124) www.muallim.edu.az muallim@media.edu.az

## Qərbi azərbaycanlılar təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına qayıdacaqlar

## Bu il Azərbaycan Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşünə ev sahibliyi edəcək




### Prezident İlham Əliyevin mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündəki çıxışından

Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının keçən il Azərbaycanın təşəbbüsü ilə Şuşada ilk qeyri-rəsmi Zirvə görüşü keçirilmişdir. Şadam ki, bu təşəbbüsün davamı olaraq ikinci qeyri-rəsmi Zirvə görüşü təşkil edilir... Bu il Azərbaycan Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşünə ev sahibliyi edəcək. Sizi Zirvə görüşündə iştirak etmək üçün Azərbaycana dəvət edirəm.

## Böyük türk aliminə yüksək etimad



### Prezident İlham Əliyev Nobel mükafatı laureatı Əziz Sancarın Əlişir Nəvai Beynəlxalq Mükafatı ilə təltif olunması mərasimində iştirak edib

Mayın 21-də Budapeştdə Nobel mükafatı laureatı Əziz Sancarın Əlişir Nəvai Beynəlxalq Mükafatı ilə təltif olunması mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

## "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi"

### Ankarada Qərbi Azərbaycana qayıdış mövzusunda beynəlxalq konfrans keçirilib

Mayın 21-də Türkiyənin Ankara şəhərində Qərbi Azərbaycan İcmasının və "Azərbaycan-Türkiyə Evi" İctimai Birliyinin birgə təşkilatçılığı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin tərəfdaşlığı ilə "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransa Azərbaycan və Türkiyədən 250-ə yaxın iştirakçı, o cümlədən Türkiyə Böyük Millət Məclisinin (TBMM) üzvləri, dövlət qurumlarının nümayəndələri, universitet rektorları, elm və iş adamları, qeyri-hökumət təşkilatlarının və media nümayəndələri qatılıb.

Tədbir Azərbaycanın və Türkiyənin Dövlət himnlərinin səslənməsi ilə başlayıb. Sonra Ümummilli Lider Heydər Əliyevin, Azərbaycanın və Türkiyənin bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Daha sonra Qərbi Azərbaycan həqiqətləri və Qərbi Azərbaycan İcmasının fəaliyyəti, Qərbi azərbaycanlıların ləyaqətli şəkildə geri qayıdışı ilə bağlı Qərbi Azərbaycan Televiziyası tərəfindən hazırlanan film nümayiş etdirilib.

**Ardı səh.2**

## Əminə Əliyeva dünya çempionu olub



"Əminə Əliyeva ilk dəfə idi döyüş tatamisinə ayaq basırdı. Həyəcanın olması normaldır. Amma döyüşün ilk saniyələrindən göstərdiyi cəsarət hamımızı heyrətləndirdi. Bu uğurun arxasında böyük əziyyət dayanır. Əminənin nailiyyəti əzmkarlığın göstəricisidir.

**Bax səh. 4**

## "Stabillikdən inkişafa doğru: Daha cəsarətli, daha yaxşı təhsili birlikdə qururuq"

### Elm və təhsil naziri Emin Əmrullayev 21-ci Dünya Təhsil Forumunda iştirak edib

Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti 18-22 may 2025-ci il tarixlərində Böyük Britaniyanın London şəhərində keçirilən 21-ci Dünya Təhsil Forumunda iştirak edib.

100-dən çox ölkənin elm və təhsil nazirləri, beynəlxalq təşkilatların nümayəndələri və ekspertlərin iştirakı ilə təşkil edilən forum "Stabillikdən inkişafa doğru: daha güclü, daha cəsarətli, daha yaxşı təhsili birlikdə qururuq" devizi altında həyata keçirilib.

Forum çərçivəsində qlobal miqyasda təhsilin qarşısında duran əsas çağırışlar, innovasiya və rəqəmsallaşma, müəllim hazırlığı və beynəlxalq əməkdaşlıq kimi məsələlər müzakirə olunub.

**Elm və təhsil naziri gürcüstanlı həmkarı ilə görüşüb**

21-ci Dünya Təhsil Forumu çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev Gürcüstanın təhsil, elm və gənclər naziri Aleksandre Tsuladze ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında ümumi və ali təhsil sahəsində cari əməkdaşlıq və gələcək inkişaf perspektivləri müzakirə edilib.

**Ardı səh.3**

## 308 tələbəyə "Adlı təqaüd" verilib

Bax səh. 5

## Yeni ixtisasların yaradılması günümüzün qaçılmaz zərurətinə çevrilib

Bax səh. 6

## Şagirdlərin 98 faizi monitorinqdə iştirak edib

Bax səh. 7

# Qərbi azərbaycanlılar təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına qayıdacaqlar



Prezident İlham Əliyev “Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi” mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciət ünvanlayıb. Müraciətdə deyilir:

“Hörmətli konfrans iştirakçıları!

Sizi - “Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi” mövzusunda Ankara şəhərində keçirilən beynəlxalq konfransın iştirakçılarını səmimi-qəlbdən salamlayır, bu mühüm tədbirə ev sahibliyi edən dost və qardaş Türkiyə Respublikasına böyük təşəkkürümü bildirirəm. Azərbaycan və Türkiyə nümayəndələrinin bir araya gəldiyi bu konfrans regionumuzda sülhün, ədalətin və insan hüquqlarının bərqərar olması yolunda çox əlamətdar hadisədir. Azərbaycan və Türkiyə arasında müttəfiqlik və qardaşlıq münasibətləri, hər iki ölkənin beynəlxalq hüquq prinsiplərinə sadiqliyi bölgədə sabitliyin təmin olunması üçün möhkəm zəmin yaradır.

Çox təəssüf ki, silahlı münaqişələr və irqi ayrı-seçkilik nəticəsində milyonlarla insan öz doğma yurdlarından didərgin düşərək qaçqınlıq həyatı yaşayır. Xüsusilə, Birinci Dünya müharibəsi dövründə və ondan sonra erməni radikalizmi və ekstremizmi Azərbaycan xalqını misli görünməmiş müsibətlərə düçar etmiş, nəticədə yüz minlərlə soydaşımız öz dədə-baba torpaqlarından zorla çıxarılmış, kütləvi qətl və qırğınlara məruz qalmışdır.

Qərbi Azərbaycanda - Ermənistan ərazisində 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə sistemli və total şəkildə etnik təmizləmə həyata keçirilmiş və beləliklə, Ermənistanda bir nəfər belə azərbaycanlı qalmamışdır. Bu etnik təmizləmə böyük humanitar faciə olmaqla yanaşı, 1920-ci ildə Qərbi Zəngəzurun Azərbaycandan alınaraq Ermənistana verilməsi ilə Azərbaycanın əsas hissəsinin onun ayrılmaz hissəsi olan Naxçıvanla quru əlaqəsini kəsmək kimi mənfur geosiyasi məqsədə də xidmət etmişdir.

Ermənistan minilliklər boyu Qərbi Azərbaycanda yaşamış azərbaycanlıların zəngin mədəni irsini, qədim yaşayış məskənlərini, məscidlərini, ziyarətgahlarını və qəbiristanlıqlarını məhv etmişdir. Ermənistanın bu destruktiv addımları həmin ərazilərdən Azərbaycan xalqının izini silmək və regionun tarixini yenidən yazmaq məqsədi daşımışdır.

2020-ci il Vətən müharibəsində qazanılmış şanlı Zəfər, 2023-cü ildə suverenliyimizin tam bərpası, hazırda Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, keçmiş məcburi köçkünlərin öz evlərinə qayıdışı Qərbi azərbaycanlılarda da böyük ruh yüksəkliyi yaratmış və onların daha mütəşəkkil qaydada fəaliyyət göstərməsinə imkan vermişdir. Qərbi Azərbaycan məsələsi artıq beynəlxalq gündəliyə daxil edilmişdir.

Qərbi Azərbaycan İcmasının beynəlxalq hüquqa uyğun dinc təşəbbüsləri təqdirəlayiqdir və dünya ictimaiyyəti tərəfindən dəstəklənir. Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə Ermənistandakı dədə-baba torpaqlarına qayıdışının təmin edilməsi regionda sülhün, insan hüquqlarının və barışığın bərqərar olması üçün vacib şərtdir.

Təəssüf ki, Ermənistan cəmiyyətində türk xalqlarına qarşı dərin kök salmış nifrət, “böyük Ermənistan” xülyası, həmin ölkənin konstitusiyasında Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarının yer alması, Qərbi azərbaycanlıların qayıdışına imkan verilməməsi sülhə mane olur. Ermənistan qonşu dövlətlərə qarşı ərazi iddialarına son qoymalı, azərbaycanlılara məxsus mədəni irsin bərpası və qorunması üçün addımlar atmalı, bu məqsədlə UNESCO-nun monitorinq missiyasına icazə verməli, qayıdış mövzusunda İcma ilə dialoqa başlamalıdır. Ermənistan Qərbi azərbaycanlıların nə vaxt və hansı şərtlərlə öz dədə-baba yurdlarına dönə bilmələri ilə bağlı aydın mövqe ifadə etməlidir. Bu məsələ ilə əlaqədar Ermənistan rəhbərliyinin İcmanın nümayəndələrini qəbul etməsini gözləyirik.

Xüsusi olaraq vurğulamaq istərdim ki, Qərbi azərbaycanlıların qayıdış istəyi Ermənistana qarşı ərazi iddiası demək deyildir və Ermənistan həmin istəyi bu formada təqdim etmək cəhdlərindən əl çəkməlidir. Qayıdış reallaşana qədər bu məsələ Azərbaycanın gündəliyindən çıxmayacaqdır. Təbii ki, öz yurdlarına dönəcək Qərbi azərbaycanlılara təhlükəsizlik zəmanəti də verilməlidir.

Hesab edirik ki, Qərbi Azərbaycanla bağlı dünya ictimaiyyətinin məlumatlılığının artmasına xidmət edən bu beynəlxalq konfrans soydaşlarımızın öz doğma torpaqlarına qayıdışına önəmli töhfə verəcəkdir.

İnanırıq ki, Qərbi azərbaycanlılar təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına qayıdacaq və bölgədə davamlı sülh bərqərar olacaqdır.

Sizə ən xoş diləklərimi çatdırır və konfransın işinə uğurlar arzulayıram”.

# “Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi”



## Ankarada Qərbi Azərbaycana qayıdış mövzusunda beynəlxalq konfrans keçirilib



**Əvvəli səh.1**

Tədbirin açılışında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub. O, Türkiyədə belə bir tədbirin keçirilməsinin xüsusi əhəmiyyətə malik olduğunu qeyd edərək, konfransın işinə uğurlar arzulayıb.

Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini, TBMM-nin üzvü Efkan Ala Qərbi Azərbaycanla bağlı Türkiyədə ilk belə konfransın keçirilməsinin tarixi əhəmiyyətindən danışıb.

Konfrans işini panel müzakirələrlə davam etdirib.

Qərbi Azərbaycanın tarixindən bəhs edən birinci panel türkiyəli tarixçi, Yeni Türkiyə Strateji Araşdırma Mərkəzinin Tarix İnstitutunun direktoru Prof. Dr. Kamal Çiçəyin moderatorluğu ilə baş tutub. Paneldə tanınmış tarixçi professorlar İlbər Ortaylı, Aygün Attar, Tufan Gündüz, Okan Yeşilot və İbrahim Ethem Atnur çıxış ediblər.

TBMM-in Qadınlar və kişilər arasında imkan bərabərliyi komissiyasının sədri Çiğdem Erdoğanın moderatorluğu ilə keçirilən “Qərbi Azərbaycan: hüquqi və humanitar aspektlər” mövzusunda ikinci paneldə TBMM-in komissiya sədrləri Vedat Bilgin və Derya Yanık, TBMM-in üzvü Zeynep Yıldız, professorlar Cavid Abdullazadə, Yaşar Sarı və Muharrem Kılıç çıxış ediblər.

Panellərdən sonra iştirakçılara təşəkkürnamələr təqdim edilib.

Konfransın bağlanış sessiyasında Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz Ələkbərov, TBMM-in üzvü, Ədalət və İnkişaf Partiyası sədrinin müavini Zafer Sırakaya, Milli Məclisin deputatı, “Azərbaycan-Türkiyə Evi” İctimai Birliyinin sədri Tənzilə Rüstəmxanlı və TBMM-in üzvü, Türkiyə-Azərbaycan Dostluq Qrupunun sədri Şamil Ayrım çıxış ediblər.

Daha sonra iştirakçılar adından konfransın yekun sənədi qəbul edilib.

Sənəddə XX əsrin müxtəlif mərhələlərində Qərbi Azərbaycanda, indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar sistemli etnik təmizləməyə məruz qalaraq doğma yurdlarından zorla çıxarıldıqları, bu proses nəticəsində yüz minlərlə Qərbi azərbaycanlının qaçqın vəziyyətinə düşdüyü, onların mədəni irsinin məhv edildiyi vurğulanıb. Bildirilib ki, bu faciəvi hadisələr regionun mədəni müxtəlifliyinə və tarixi yaddaşına ciddi zərbə vurub və hazırda həll edilməmiş ədalətsizlik kimi qalmaqdadır.

Qeyd olunub ki, Qərbi azərbaycanlıların öz ata-baba torpaqlarına təhlükəsiz və ləyaqətli qayıdışı tarixi ədalətsizliyin aradan qaldırılmasını təmin etməklə yanaşı, Cənubi Qafqazda sabitlik və barışıq üçün mühüm addımdır. Qərbi Azərbaycanda dağıdılmış məscidlərin və digər mədəni abidələrin bərpası, qorunması regional sülh və birgəyaşayışın möhkəmləndirilməsi üçün vacibdir. Mədəni müxtəliflik və barışığa xidmət edən bu işdə beynəlxalq təşkilatların yaxından iştirakı zəruridir.

Sənəddə, həmçinin Ermənistan hökuməti Qərbi azərbaycanlıların doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıdışını qeyd-şərtsiz təmin etməyə və bunun üçün beynəlxalq hüquqa uyğun real addımlar atmağa çağırılıb. Diqqətə çatdırılıb ki, Ermənistan qayıdışı təmin etmək məqsədilə Qərbi Azərbaycan İcması ilə konstruktiv dialoqa başlamalı, azərbaycanlıların mədəni irsini qorumaq və bərpa etmək üçün UNESCO-nun və digər müvafiq qurumların monitorinq missiyalarına icazə verilməli və Qərbi azərbaycanlıların mülkiyyət hüquqlarını təmin etməlidir.

Tədbir iştirakçıları Prezident İlham Əliyevin Qərbi Azərbaycana sülh yolu ilə qayıdış məsələsində liderliyini, beynəlxalq hüququn aliliyinə sadiqliyini və ədalətin bərpasına yönəlmiş səylərini yüksək qiymətləndirib, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın haqq-ədalətə, sülh və barışığa möhkəm dəstəyini alqışlayıblar.

Sonda xatirə şəkli çəkdirilib.

**Ramin ABDULLAYEV,**
*AZƏRTAC-ın xüsusi müxbiri*
*Ankara*

# “Bizim mərkəz elmi araşdırmalara söykənən həqiqətləri üzə çıxarır”



## *Professor Mahirə Hüseynovadan ermənilərə cavab*

Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, Qərbi Azərbaycandan deportasiya edilmiş azərbaycanlıların doğma yurdlarına təhlükəsiz və ləyaqətli qayıdış hüququ beynəlxalq hüquqla qorunan əsas insan haqlarından biridir. Dövlət başçısı bu məsələni həm yerli, həm də beynəlxalq platformalarda qaldıraraq Ermənistanı tarixi ədalətsizliyə son qoymağa çağırıb. Müzəffər Ali Baş Komandan dəfələrlə çıxışlarında qeyd edib ki, biz tarixi torpaqlarımızı unutmamalıyıq və unutmuruq: “Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var.

...Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır”.

Bu mövqeyin ardıcıl şəkildə təbliği və əsaslandırılması məqsədilə Qərbi Azərbaycan İcması tərəfindən məqsədyönlü işlər görülür, ali təhsil müəssisələrində, araşdırmalar mərkəzlərində, elmi-tədqiqat institutlarında tarixi faktlar üzə çıxarılır, elmi dairələrdə müzakirələr aparılır. Onlardan biri də Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektorluğu nəzdində fəaliyyət göstərən Qərbi Azərbaycan Araşdırmalar Mərkəzidir. Bu elmi mərkəz bəzi dairələr, xüsusilə ermənipərəst media və şəbəkələr tərəfindən dezinformasiyalara hədəf alınıb. Belə ki, amerikalı jurnalist Lindsi Snel və ona istinadən Ermənistan mətbuatı ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektorluğu nəzdində fəaliyyət göstərən Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin fəaliyyəti barəsində həqiqətə uyğun olmayan məlumatlar yayıb. Lindsi Snel “X” platformasında yazır ki, Azərbaycanda müasir Ermənistan ərazisini öyrənmək üçün “Qərbi Azərbaycan Tədqiqat və Türkologiya Mərkəzi” açılıb. Mərkəzdə azərbaycanlı müəllimlərə “Qərbi Azərbaycan həqiqətlərini tələbələrə çatdırmaq yolları” öyrədiləcək. O qeyd edib ki, Azərbaycan hökumətinin dəstəklədiyi təşkilatın ofisində Ermənistanın saxtalaşdırılmış xəritəsi asılıb və həmin xəritədə erməni toponimləri Azərbaycan toponimləri ilə əvəz edilib. Qondarma Qərbi Azərbaycan İcması 2023-cü ilin noyabrında Naxçıvanda “Qərbi Azərbaycan”la bağlı festival keçirib və bunu müasir Ermənistan ərazisinə “qayıtmaq” yolunda addım adlandırıb. Bundan əvvəl Azərbaycan Prezidenti İlham Əliyev ATƏT PA-nın sədri Pia Qauma ilə görüşündə İrəvanı azərbaycanlıların “Ermənistana qayıtmaq” hüququnu rədd etməkdə ittiham edib”.

Məsələ ilə bağlı Qərbi Azərbaycan İcmasının İdarə heyətinin üzvü, ADPU-nun prorektoru, professor Mahirə Hüseynovanın mövqeyini öyrəndik.

- *Mahirə xanım, Lindsi Snel mərkəziniz haqqında dezinformasiyalar yayaraq dünya ictimaiyyətinin diqqətini əsl mahiyyətdən uzaqlaşdırmaqla bir sıra fikirlər səsləndirib. Bununla bağlı nə deyə bilərsiniz?*

- Əslində, bu cür hücumlar gözləniləndir. Çünki biz illərlə susdurulmuş tarixi faktları gün işığına çıxarırıq. Fəaliyyətimizdə qərəz, təbliğat deyil, tarixi ədalətin bərpası amalı var.

Görürük ki, ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektorluğu nəzdində fəaliyyət göstərən Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin fəaliyyəti Ermənistanda təşviş doğurur, davamlı olaraq bizim fəaliyyətimiz barədə həqiqətə uyğun olmayan məlumatlar yayırlar. Guya mərkəzdə saxta xəritə düzəldilib və erməni toponimləri dəyişdirilib.

Biz yaxşı bilirik ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıb. Bu, tarixi həqiqətdir. Tarixi sənədləri araşdırarkən İrəvan xanlığında yaşayanların əksəriyyətinin azərbaycanlılar olduğu göstərilir. Və o da məlumdur ki, Zəngəzur mahalı Azərbaycandan zorla qopardılıb ki, böyük türk dünyasını parçalasınlar və elə də oldu. Amma biz əminik ki, çox tezliklə bu ədalətsizliklər aradan qaldırılacaqdır.

Bizim ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektorluğu nəzdində fəaliyyət göstərən Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin fəaliyyəti ilə bağlı səsləndirilən fikirlər əsassızdır. Deyərdim ki, bu, tamamilə yanlış və manipulyativ yanaşmadır. Biz pedaqoji yönümlü ali təhsil müəssisəsi olaraq, müəllimlərimizin, eyni zamanda böyüməkdə olan gənc nəslin Qərbi Azərbaycanla bağlı yalnız tarixi və elmi mənbələrə əsaslanaraq ətraflı məlumat almaları üçün metodik materiallar təqdim edirik. Düşünürəm ki, bu, normal qəbul edilən bir təhsil yanaşmasıdır.Tarixi sənədlərə əsaslanaraq Qərbi Azərbaycanın demoqrafik, etnoqrafik, mədəni və sosial strukturlarını araşdırırıq.

Biz heç bir xalqı hədəf almırıq, sadəcə öz xalqımıza tariximizi, əzəli torpaqlarımız barədə məlumatları doğru şəkildə çatdırmağa çalışırıq. Və ermənilərin təşvişinə də heç bir əsas yoxdur. Bizim mərkəz elmi araşdırmalara söykənən həqiqətləri üzə çıxarır.

- *Bəs Lindsi Snelin “Qərbi Azərbaycan həqiqətlərini müəllimlərə öyrətmək” kimi təqdim etdiyi iddia nə dərəcədə doğrudur?*

- Bəli, biz pedaqoji universitet olaraq təbii ki, müəllimlərə istiqamət veririk. Ancaq bu istiqamət bir təbliğat deyil, tarixi həqiqətlərin düzgün təqdimidir. Məqsədimiz gələcək nəsillərə öz tarixini doğru çatdırmaqdır. Lindsi Snelin yazdığı kimi “erməni toponimlərinin dəyişdirilməsi”, “saxta xəritələr” kimi iddialar tam əsassızdır. Qeyd etdiyim kimi, biz beynəlxalq elmi prinsiplərə əsaslanan işlər görürük və hər sənədimizə sübutlarla yanaşırıq.

- *Ermənilər bu mərkəzin fəaliyyətini sanki Qərbi Azərbaycana qayıdışın ideoloji bazası kimi təqdim edirlər. Buna münasibətiniz necədir?*

- Əgər insan öz ata-baba yurduna qayıtmaq istəyirsə, bu niyyət necə təhlükəli ola bilər? Heç kimin torpağında gözümüz yoxdur. Amma bizim haqqımız olan torpaqlara - İrəvana, Göyçəyə, Zəngəzura qayıtmaq niyyətimizi də gizlətmirik. Fikrimcə, həm tarixi, həm də hüquqi baxımdan bu, bizim haqqımızdır. Və dünya ictimaiyyəti də Qərbi Azərbaycan haqqında həqiqətləri bilməlidir. Bizim fəaliyyətimiz də məhz bu həqiqətlərin üzə çıxarılmasına yönəlib.

Gördüyünüz kimi, biz dinc və ləyaqətli formada öz yurdumuza qayıtmaq istəyirik. Bizi bu yoldan heç kim döndərə bilməz.

**Samirə KƏRİMOVA**

# "Stabillikdən inkişafa doğru: daha cəsarətli, daha yaxşı təhsili birlikdə qururuq"

## Elm və təhsil naziri Emin Əmrullayev 21-ci Dünya Təhsil Forumunda iştirak edib











Əvvəli səh.1

**Elm və Təhsil Nazirliyi ilə "Times Higher Education" reytinq agentliyi arasında ikitərəfli görüş**

Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə "Times Higher Education" beynəlxalq reytinq agentliyinin (THE) rəhbərliyi arasında ikitərəfli görüş keçirilib. Görüş zamanı Azərbaycan ali təhsil müəssisələrinin THE reytinqlərində cari göstəriciləri və perspektivləri müzakirə olunub.

Eyni zamanda, növbəti aylarda ikitərəfli əməkdaşlıq çərçivəsində həyata keçiriləcək layihələr barədə fikir mübadiləsi aparılıb. Belə ki, 16-19 iyun tarixlərində THE tərəfindən Türkiyənin İstanbul şəhərində keçiriləcək "Qlobal Davamlı İnkişaf Konqresi"ndə Elm və Təhsil Nazirliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin nümayəndə heyətinin iştirakı və aparıcı universitetlərimizin Azərbaycan pavilyonunda təmsil olunması nəzərdə tutulur.

Əlavə olaraq, 24-25 sentyabr tarixlərində Bakı şəhərində ilk dəfə "Transmilli tədqiqat: bilikdən qlobal təsirə doğru" mövzusunda keçiriləcək "THE Avrasiya Universitetlərinin Sammiti"nə hazırlıq prosesi müzakirə olunub. Belə ki, sözügedən sammitdə müvafiq sahə üzrə qlobal miqyasda tanınmış 50-dən çox spikerin və 150-ə yaxın qurumun 350-dən çox iştirakçısının təmsil olunması gözlənilir.

**Elm və təhsil naziri türkiyəli həmkarı ilə görüşüb**

Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərliyi ilə 21-ci Dünya Təhsil Forumu çərçivəsində nümayəndə heyətinin ikitərəfli görüşləri davam edib. Forum çərçivəsində nümayəndə heyəti Türkiyənin milli təhsil naziri Yusuf Tekin və Türkiyənin Böyük Britaniyadakı səfiri Osman Koray Ertaş ilə görüşüb.

Görüş zamanı Azərbaycan və Türkiyə arasında ümumi təhsil, peşə təhsili və ali təhsil sahələrində mövcud əməkdaşlığın cari vəziyyəti və gələcək inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

**Elm və Təhsil Nazirliyi ilə IB arasında əməkdaşlıq imkanları müzakirə olunub**

Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Beynəlxalq Bakalavriat (IB) təşkilatının Baş direktoru Olli-Pekka Heinonen ilə ikitərəfli görüş keçirib.

Görüş zamanı Elm və Təhsil Nazirliyi ilə IB arasında gələcək əməkdaşlıq istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.

**"Quacquarelli Symonds" qlobal reytinq agentliyinin rəhbərliyi ilə görüş keçirilib**

Elm və təhsil naziri Emin Əmrullayevin "Quacquarelli Symonds" (QS) qlobal reytinq agentliyinin təsisçisi və prezidenti Nunzio Quacquarellinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü keçirilib.

Görüş zamanı Azərbaycan ali təhsil müəssisələrinin QS reytinqlərində cari göstəriciləri və perspektivləri müzakirə olunub. Eyni zamanda, növbəti aylarda ikitərəfli əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsi imkanları barədə fikir mübadiləsi aparılıb.

**Elm və təhsil naziri ICESCO-nun baş direktoru ilə görüşüb**

Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyətinin əməkdaşlıq görüşləri davam edir.

ICESCO-nun baş direktoru Səlim bin Məhəmməd əl-Malik və Təhsil sektorunun rəhbəri Haddy Jatou Sey ilə görüşüb.

Görüşdə elm və təhsil sahələrində mövcud əməkdaşlıq məsələləri müzakirə olunub, bu istiqamətlərdə birgə təşəbbüslərin genişləndirilməsi imkanları ətrafında fikir mübadiləsi aparılıb.

**Elm və təhsil naziri Londonda Dövlət Proqramı təqaüdçüləri ilə görüşüb**

Böyük Britaniyaya səfəri çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev Londonda Dövlət Proqramı çərçivəsində bu ölkədə təhsil alan azərbaycanlı tələbələrlə görüş keçirib.

Görüş Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyində, fövqəladə və səlahiyyətli səfir Elin Süleymanovun iştirakı ilə baş tutub.

Nazir çıxışında Azərbaycanda elm və təhsil sahəsinə göstərilən davamlı dövlət qayğısını vurğulayaraq son illərdə həyata keçirilən islahatlar və yeniliklər barədə tələbələri məlumatlandırıb. Nazir, xüsusilə Qarabağ Universitetində yaradılan müasir tədris imkanlarına toxunub.

Emin Əmrullayev həmçinin xaricdə təhsil üzrə Dövlət Proqramının 2028-ci ilədək uzadıldığını və bu çərçivədə tələbə sayının artırıldığını diqqətə çatdırıb.

Görüş zamanı tələbələrin suallarını cavablandıran nazir onları təhsillərini başa vurduqdan sonra Vətənə dönərək elmin və ali təhsilin inkişafına töhfə verməyə çağırıb.

# "Gələcək təhsil liderləri"

## Nazir müavini müsabiqənin mükafatlandırma mərasimində iştirak edib







Mayın 22-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) "Gələcək təhsil liderləri" müsabiqəsinin II mövsümünün bağlanış və mükafatlandırma mərasimi keçirilib.

Tədbirdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov, gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin İşçi qrupunun rəhbəri Fərhad Hacıyev, Təhsil İnstitutunun direktoru vəzifəsini icra edən Elnur Əliyev, "bp"nin vitse-prezidenti Bəxtiyar Aslanbəyli, eləcə də digər rəsmi qonaqlar, təhsil ictimaiyyəti və ekspertlər iştirak ediblər.

Əvvəlcə layihə rəhbəri, ADPU-nun İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin müdiri Taleh Mirzəyev müsabiqə ilə bağlı geniş təqdimatla çıxış edib. Bildirib ki, müsabiqə ali təhsil müəssisələri arasında ilk dəfə ADPU-da 2024-cü ildən keçirilir. "bp Azərbaycan" şirkətinin sponsorluğu ilə keçirilən müsabiqənin I mövsümünün qaliblərinin mentorluq proqramı uğurla tamamlanıb, eləcə də 2025-ci ilin fevral-may ayları ərzində müsabiqənin II mövsümü təşkil olunub.

ADPU-nun rektoru Cəfər Cəfərov müsabiqənin məqsədlərindən danışaraq bildirib ki, ilk növbədə istedadlı və liderlik bacarığı olan tələbələri aşkarlayıb onların şəxsi inkişafına dəstək verməyi planlaşdırıblar. Universitetin kadr ehtiyatının formalaşdırılması üçün tələbələrin potensialını aşkarlamaq, məzunları müxtəlif yollarla universitetin idarəçiliyinə cəlb etmək müsabiqənin məqsədlərindən olub. Rektor tələbələrə uğur arzulayaraq illər keçdikcə layihənin əhatə dairəsinin artacağına və Azərbaycan təhsilinə töhfə verəcək yeni nəsil liderlərin yetişdirilməsində rol oynayacağına inamını ifadə edib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, ölkənin siyasi və sosial-iqtisadi istiqamətlərinin inkişafı şəraitində cəmiyyətin müxtəlif sahələrində potensial liderlərin formalaşması problemi aktuallaşır. Millətin istedadlı liderləri fondunun yaradılması probleminin həlli — effektiv liderlərin formalaşmasına şərait yaradan mühitin yaradılması olacaq. Hazırda peşə təhsili qarşısında yalnız əmək bazarını kompetent mütəxəssislərlə təmin etmək deyil, həm də şəxsi inkişaf və peşəkar yüksəliş imkanlarını təmin etmək vəzifəsi durur. Bu da liderlik keyfiyyətləri aydın şəkildə formalaşmış şəxslərin inkişafını da əhatə edir.

Təhsilin gələcək liderlərindən tələb olunan keyfiyyətlərə toxunan nazir müavini əlavə edib ki, bizi gələcəkdə hansı çağırışların, necə problemlərin gözlədiyini bilmirik və bu baxımdan qarşıya çıxacaq istənilən problemi həll etməyi bacaran məzunlar olmalıdır. Firudin Qurbanov qeyd edib ki, tələbələr üçün liderlik, ilk növbədə, sosial fəallıq və ya aktiv həyat mövqeyi deməkdir. Bu, ali məktəbi yeni bitirən gənc üçün son dərəcə faydalıdır. Çünki belə mövqe işəgötürənlərin marağındadır. Sosial cəhətdən fəal tələbələr arasında bugünkü liderlər gələcəkdə rəhbər, ictimai və siyasi liderlər kimi cəmiyyətdə və sosial institutlarda fəaliyyət göstərə bilərlər.

Nazir müavini qeyd edib ki, təhsili ictimai fəaliyyətlə uğurla birləşdirən tələbənin gələcəkdə kollektivi idarə etməsi və ya ən azı onun qeyri-rəsmi liderinə çevrilməsi ehtimalı daha yüksəkdir. Belə tələbə kollektivin psixoloji atmosferinə, şəxslərarası münasibətlərə, əməkdaşların vəzifələrini yerinə yetirmə keyfiyyətinə və sürətinə təsir edə bilər.

"bp"nin vitse-prezidenti Bəxtiyar Aslanbəyli öz növbəsində bildirib ki, təmsil etdiyi şirkət iqtisadi fəaliyyəti ilə yanaşı, cəmiyyətin sosial həyatında da yaxından iştirak etməyə çalışır və şirkətin sosial fəaliyyətinin əsas hissəsi təhsil sektorundadır. Həyata keçirilən layihələrin 75 faizi təhsillə bağlıdır. Bəxtiyar Aslanbəyli bu müsabiqənin qaliblərinin gələcək müəllimlər nəslinin formalaşmasında mühüm rol oynayacaqlarına əminliyini ifadə edib.

Fərhad Hacıyev isə çıxışında deyib ki, "Yüksəliş" müsabiqəsi bir ənənə formalaşdırıb və "Gələcək təhsil liderləri" bu ənənəni davam etdirir. O, müsabiqə qalibləri və ADPU tələbələrinə "Yüksəliş"ə qoşulmağı tövsiyə edib.

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədrinin müşaviri Aliyə Əliyeva çıxışında tələbələrin belə təşəbbüslərlə qeyri-formal bacarıqlarını inkişaf etdirməsinin olduqca müsbət bir tendensiya olduğunu vurğulayıb.

Sonda "Sən də bacararsan!" şüarı ilə keçirilən müsabiqənin qalibləri mükafatlandırılıb.

Tədbirdə həm də müsabiqənin İşçi qrupunun üzvləri, ekspertləri və ötən ilin qalibi olaraq mentorluq proqramını uğurla tamamlayan tələbə və məzunlar mükafatlandırılıblar.

Tədbir bədii hissə ilə yekunlaşıb.



# Əminə Əliyeva dünya çempionu olub

**İtaliyanın Peruca şəhərində kunq-fu üzrə dünya çempionatına start verilib. Azərbaycan Kunq-Fu Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, mundialın ilk günündə milli komandanın üzvü Əminə Əliyeva parlaq çıxışla yadda qalıb. Prezident İlham Əliyevin nəvəsi olan idmançı “light sanda” döyüşü üzrə finala vəsiqə qazanıb.**



Turnirin açılış mərasimində Azərbaycan Kunq-Fu Federasiyasının prezidenti Nurlan Aslanov çıxış edərək, ölkəmizin idman uğurlarından, xüsusilə də Prezident İlham Əliyevin idmana göstərdiyi xüsusi qayğı və dəstəkdən bəhs edib. Onun sözlərinə görə, bu diqqət və dəstək sayəsində Azərbaycan idmançıları beynəlxalq arenalarda uğurla çıxış edir və bayrağımızı ucaldır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın qızı, Prezident İlham Əliyevin nəvəsi Əminə Əliyeva kunq-fu üzrə dünya çempionatında uğurla çıxış edib.

Azərbaycan Kunq-Fu Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, milli komandanın 11 yaşlı üzvü Əminə Əliyeva İtaliyanın Peruca şəhərində təşkil edilən turnirdə ölkəmizi layiqincə təmsil edib və dünya çempionu olub.

### Azərbaycan Kunq-Fu Federasiyasının prezidenti: Əminə Əliyeva dünya çempionatında əzmkarlıq nümayiş etdirdi

İtaliyanın Peruca şəhərində kunq-fu üzrə dünya çempionatında idmançılarımız tarixi nəticə əldə etdilər.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Kunq-Fu Federasiyasının prezidenti Nurlan Aslanov jurnalistlərə açıqlamasında deyib. O, qızlar arasında yarışda dünya çempionu olan Əminə Əliyevanın əzmkarlıq nümayiş etdirdiyini bildirib: “Əminə Əliyeva ilk dəfə idi döyüş tatamisinə ayaq basırdı. Həyəcanın olması normaldır. Amma döyüşün ilk saniyələrindən göstərdiyi cəsarət hamımızı heyrətləndirdi. Bu uğurun arxasında böyük əziyyət dayanır. Əminənin nailiyyəti əzmkarlığın göstəricisidir. Əminənin şəxsi məşqçisi federasiyamızın şəxsi məşqçisi Babək Əliyevdir. O, peşəkar mütəxəssisdir”.

Federasiya rəhbəri komandaya dəstək olan bütün azarkeşlərə təşəkkür edib.

### Dünya çempionatında yüksək nəticələr əldə edən kunq-fu üzrə Azərbaycan millisi Vətənə qayıdıb

İtaliyanın Peruca şəhərində keçirilən dünya çempionatında yüksək nəticələr əldə edən kunq-fu üzrə Azərbaycan millisinin üzvləri Vətənə qayıdıblar.

AZƏRTAC xəbər verir ki, onları Heydər Əliyev Beynəlxalq Aeroportunda media mənsubları, azarkeşlər və idmançıların yaxınları qarşılayıblar.

“Light sanda” növü üzrə mübarizə aparan idmançılarımız yarışı 5-i qızıl, 2-si gümüş olmaqla, ümumilikdə 7 medalla başa vurublar.

Qızların yarışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın qızı, Prezident İlham Əliyevin nəvəsi Əminə Əliyeva (11 yaş, 38 kiloqram) dünya çempionu olub.

Oğlanlar arasında isə Rəsul Əsgərov (11—12 yaş, 36 kiloqram), Hüseyn Əliyev (13—15 yaş, 48 kiloqram), Toğrul Mikayılov (böyüklər, 65 kiloqram), Eller Orucov (böyüklər, 75 kiloqram) qızıl, Əli Baxışov (11—12 yaş, 33 kiloqram) və Əkbər Əhmədzadə (13—15 yaş, 70 kiloqram) gümüş mükafata yiyələniblər.

Azərbaycan yığması bu nəticə ilə komanda hesabında isə 3-cü yerin sahibi olub.

# Tələbələr arasında futbola maraq artır

## Azərbaycan Tələbə Liqasının 2024/2025 mövsümünün bağlanış mərasimi keçirilib

Mayın 21-də ali təhsil müəssisələrinin tələbələri arasında futzal üzrə Azərbaycan Tələbə Liqasının 2024/2025 mövsümünə yekun vurulub.

III yer uğrunda mübarizədə Bakı Dövlət Universitetinin komandası Bakı Mühəndislik Universitetinin komandasına qalib gəlib. Azərbaycan İdman Akademiyasının komandası Azərbaycan Texniki Universitetinin komandasını məğlub edərək liqanın qalibi olub.

Liqanın ikinci altılığında mübarizə aparan komandalardan I yeri Azərbaycan Dövlət Pedaqoji Universiteti, II yeri Milli Aviasiya Akademiyası, III yeri Azərbaycan Tibb Universitetinin komandası tutub.

Oyunlardan sonra qaliblərin mükafatlandırılma mərasimi keçirilib.

Tədbirdə elm və təhsil nazirinin müavini, Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin prezidenti Firudin Qurbanov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Araz Paşayev, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının, Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin rəsmi şəxsləri, veteran futbolçular iştirak ediblər.

Sonra AFFA-nın Hakimlər Komitəsinə oyunların idarə olunmasındakı səmərəli fəaliyyətinə görə “Təşəkkürnamə” təqdim olunub. Oyunlarda fərqlənən üç tələbə-futbolçu “Ən yaxşı qapıçı”, “Ən yaxşı müdafiəçi”, “Ən yaxşı oyunçu” nominasiyaları üzrə xüsusi mükafatla təltif olunub, ikinci altılığın qalib komandalarına hədiyyə, liqanın qalib komandalarına medal və pul mükafatı, çempion komandaya kubok təqdim edilib.

Qeyd edək ki, Azərbaycan Tələbə Liqası 2023-cü ildən etibarən Elm və Təhsil Nazirliyi və Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının dəstəyi ilə keçirilir.

Azərbaycan Tələbə Liqasının 2024/2025 mövsümünə 29 noyabr 2024-cü il tarixində start verilib və liqada 12 ali təhsil müəssisəsi mübarizə aparıb.

Liqanın keçirilməsində məqsəd ali təhsil müəssisələrinin tələbələri arasında futzal idman növünün təbliğ olunması, onlar arasında perspektivli idmançıların aşkar edilməsi, bu idman növünə marağın artırılması, tələbələrdən ibarət futzal üzrə yığma komandanın formalaşdırılmasından ibarət olub.

### *Nazir müavini Firudin QURBANOV:*

“Azərbaycan Tələbə Liqasının 2024/2025 mövsümündə - builki turnirdə 12 komanda iştirak edib. Noyabr ayından başlayan Tələbə Liqası gərgin və maraqlı oyunlarla yadda qalıb. Sevindirici haldır ki, ali məktəblərdə tələbələr arasında futbola maraq artır. Qalib komanda bu il iyul ayında Xorvatiyada universitetlər arasında keçiriləcək çempionatda iştirak edəcək. Artıq üçüncü ildir ki, azərbaycanlı tələbələr ölkəmizi Avropada təmsil edir və yaxşı nəticələr əldə edirlər”.










# 308 tələbəyə "Adlı təqaüd" verilib



Təhsilə göstərilən diqqət və qayğı Azərbaycanın gələcəyinə qoyulan ən dəyərli sərmayədir

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) üzv təşkilatı olan Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (ATİAHİ) Respublika Komitəsi tərəfindən ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan əlaçı və tələbə həmkarlar ittifaqı hərəkatında fəal iştirak edən tələbələrə "Adlı təqaüd" verilib. Bu münasibətlə Bakı Ali Neft Məktəbində keçirilən tədbirdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov, ATİAHİ Respublika Komitəsinin sədri Araz Paşayev, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov, millət vəkilləri, bir sıra ali təhsil müəssisələrinin rektorları, tələbə həmkarlar ittifaqı komitələrinin sədrləri iştirak ediblər.






Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Tədbir iştirakçıları tərəfindən Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov tədbirə ev sahibliyi edən Bakı Ali Neft Məktəbinin nüfuzlu ali təhsil müəssisələrindən biri olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, 2011-ci ildə dövlət başçısının müvafiq sərəncamı ilə təsis olunan ali təhsil ocağı Prezident təqaüdçülərinin sayına, yüksəkixtisaslı kadr hazılığına görə ön sıralardadır: "Prezident İlham Əliyevin "Biz neft kapitalını insan kapitalına çevirməliyik" prinsipinin bariz təzahürü olan Bakı Ali Neft Məktəbi tələbələrə yüksək keyfiyyətli təhsil verməklə yanaşı, onların işlə təminatını da diqqətdə saxlayır".

Konfederasiya sədri ölkəmizdə həyata keçirilən gənclər siyasətindən danışıb. Dövlət başçısı İlham Əliyev tərəfindən gənclərin vətənpərvərlik ruhunda böyüməsi, onların elmi, yaradıcılıq potensialının üzə çıxarılması, yüksəkixtisaslı kadr kimi formalaşması istiqamətində görülən işləri qeyd edib.

Çıxışında Heydər Əliyev Fondunun ölkə gəncliyinin inkişafındakı xidmətlərini vurğulayan Sahib Məmmədov Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə elm, təhsil, mədəniyyət, səhiyyə və idman sahələrində həyata keçirilən uğurlu layihələri də diqqətə çatdırıb. Qeyd olunub ki, AHİK və ATİAHİ Respublika Komitəsi son dövrlərdə dövlətin gənclər siyasətinə fəal dəstək verir, onların sosial müdafiəsinin gücləndirilməsi, əmək hüquqlarının qorunması və potensiallarının inkişaf etdirilməsi istiqamətində müxtəlif tədbirlər və layihələr həyata keçirir.

Belə layihələrdən biri olan "Adlı təqaüd" tələbə gənclərin elmə və təhsilə marağının artmasına, eləcə də şəxsi inkişafına əhəmiyyətli töhfə verir.

Sədr təqaüd alan tələbələri təbrik edərək onlara yeni-yeni nailiyyətlər arzulayıb.

Daha sonra çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov qeyd edib ki, bu gün Azərbaycanın inkişaf edən təhsil sistemi məhz Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu siyasətin məntiqi davamıdır. Onun sözlərinə görə, Ulu Öndərin əsas hədəflərindən biri də bilikli, savadlı, milli ruhda tərbiyə olunmuş gənclər yetişdirmək idi. Bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və nəticədə Azərbaycan gəncliyi beynəlxalq aləmdə rəqabətədavamlı biliyə, müasir dünyagörüşünə və yüksək həyat bacarıqlarına malik bir nəsil kimi formalaşır.

Firudin Qurbanov çıxışında vurğulayıb ki, bu gün ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan gənclər elmi biliklərə yiyələnməklə yanaşı, həm də bir şəxsiyyət olaraq formalaşır. Nazir müavini bügünkü tədbirin əhəmiyyətinə də toxunub: "Bu gün burada iştirak edən tələbələr həm təhsildəki nailiyyətləri, həm də ictimai fəallıqları ilə fərqlənirlər. Onlar gələcəyin liderləri, cəmiyyətin aparıcı qüvvələri olacaqlar".

Firudin Qurbanov qeyd edib ki, Elm və Təhsil Nazirliyi ATİAHİ Respublika Komitəsi ilə sıx əməkdaşlıq edir. Bir sıra uğurlu tədbirlər həyata keçirilir. Nazir müavini söyləyib ki, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin tələbələrə təqdim etdiyi "Adlı təqaüd" gənclərin təhsilə olan marağını artırmaqla yanaşı, onların ictimai həyatda fəallığını da stimullaşdırır: "Təhsilə göstərilən diqqət və qayğı Azərbaycanın gələcəyinə qoyulan ən dəyərli sərmayədir. Bu gün ali təhsil müəssisələrimizdə olduqca istedadlı, yüksək biliyə malik, təhsildə yüksək nailiyyətləri olan gənclər təhsil alırlar. Onlar nəzəri biliklərlə yanaşı praktik bacarıqları ilə də seçilirlər".

Nazir müavini tədbirin Bakı Ali Neft Məktəbində keçirilməsinin də təsadüfi olmadığını deyərək bu ali təhsil müəssisəsini müxtəlif ixtisaslar üzrə dünya standartlarına uyğun kadrlar hazırlayan aparıcı mərkəzlərdən biri kimi dəyərləndirib. Firudin Qurbanov Dövlət Məşğulluq Agentliyinin ali məktəblərin məzunlarının işlə təminatına dair açıqlamasını diqqətə çatdırıb. Qeyd olunub ki, BANM məzunları əmək bazarında liderdir. İşəgötürənlər bu ali təhsil müəssisəsini bitirən gəncləri işlə təmin etməkdə özləri maraqlıdır. Bakı Ali Neft Məktəbinin məzunları bu gün əmək bazarında böyük tələbatla qarşılanır.

Nazir müavini daha sonra qeyd edib ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın gəncləri əsl qəhrəmanlıq nümunəsi göstəriblər. Təhsil aldıqları sahədən, ixtisaslarından asılı olmayaraq, minlərlə gənc silaha sarılıb, torpaqlarımızın azadlığı uğrunda canından keçməyə hazır olduqlarını sübut edib. "Bu Vətənpərvərlik ruhu, bu igidlik Azərbaycan gəncliyinin kimliyini, dəyərini və gücünü bir daha bütün dünyaya nümayiş etdirdi", - deyə F.Qurbanov qeyd edib.

Çıxışının sonunda tələbələrə ən xoş arzularını çatdıran Firudin Qurbanov bugünkü gəncliyin Azərbaycanın gələcək inkişafına böyük töhfələr verəcəyinə ümidvar olduğunu bildirib.

Tədbirdə çıxış edən Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov Azərbaycan gəncliyinin inkişafından və onların cəmiyyətin həyatında fəal iştirakından danışaraq bugünkü uğurların kökündə güclü təhsil, sağlam gənclik və dövlətin bu sahəyə göstərdiyi diqqətin dayandığını qeyd edib. Bildirib ki, müasir Azərbaycan gənci yalnız elm və təhsildə deyil, həm də ictimai-siyasi fəallıqda, könüllülük hərəkatında, vətənpərvərlik nümunəsində də ön sıralardadır.

Anar İsgəndərov həmçinin tələbələrin inkişafında həmkarlar ittifaqlarının mühüm roluna toxunub. Komitə sədri söyləyib ki, tələbə həmkarlar ittifaqları tələbələrin ictimai təşəbbüslərinin dəstəklənməsi, onların liderlik və təşkilatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsi baxımından da önəmli platformadır: "Bu gün burada "Adlı təqaüdə" layiq tələbələr bir daha sübut edirlər ki, savadla yanaşı, sosial aktivlik də onların formalaşmasında mühüm rol oynayır".

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov tədbirə ev sahibliyi etmələrindən məmnunluq duyduğunu deyib. O söyləyib ki, Bakı Ali Neft Məktəbi savadlı, intellektual və vətənpərvər gənclərin yetişməsi üçün əlverişli təhsil və inkişaf mühiti yaradıb. Rektor tələbə həmkarlar ittifaqı təşkilatlarının fəaliyyətinə xüsusi toxunaraq bu birliyin gənclərin lider kimi formalaşmasında, cəmiyyətdə fəal mövqe tutmasında mühüm rol oynadığını diqqətə çatdırıb.

"Məhz bu təşkilatların fəaliyyəti nəticəsində tələbələr özlərini yalnız auditoriyada deyil, həm də cəmiyyət qarşısında məsuliyyət daşıyan şəxslər kimi hiss edirlər", - deyə rektor qeyd edib.

Sonra Bakı Ali Neft Məktəbinin Şimali Kipr Türk Cümhuriyyətində keçirilən "Texnofest 2025"də iştirak edən komandası tərəfindən elm və təhsil nazirinin müavini Firudin Qurbanova və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova ali təhsil müəssisəsinin "Fəxri qonaq" diplomu təqdim olunub.

Tələbələr adından Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin tələbəsi Nəzrin Əliyeva çıxış edərək bu təqaüdün gənclərə verilən sadəcə maddi dəstək deyil, eyni zamanda mənəvi stimul, onlara olan böyük inamın göstəricisi olduğunu bildirib. Qeyd edib ki, tələbə həmkarlar təşkilatları tələbələrin hüquqlarını müdafiə etməklə yanaşı, onların sosial-mədəni həyatda fəal iştirakına imkan yaradır, liderlik bacarıqlarını inkişaf etdirir.

Sonda ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan əlaçı və tələbə həmkarlar ittifaqı hərəkatında fəal iştirak edən 308 tələbəyə "Adlı təqaüd" təqdim olunub.

Qeyd edək ki, ATİAHİ Respublika Komitəsinin "Adlı təqaüd" layihəsi 1995-ci ildən həyata keçirilir. Əvvəlki illərdə adıçəkilən təqaüd hər semestrdə 65 tələbəyə təqdim olunurdusa, artıq 2024-2025-ci tədris ilində bu rəqəm əvvəlcə 100, daha sonra isə 308 tələbəyə çatdırılıb. İndiyə qədər 3179 tələbə bu təqaüdə layiq görülüb.

**Samirə KƏRİMOVA**

# Yeni ali təhsil proqramlarının hazırlanması məqsədilə yaradılmış Komissiyanın növbəti iclası keçirilib




Elm və Təhsil Nazirliyində yeni ali təhsil proqramlarının hazırlanması məqsədilə yaradılmış Komissiyanın növbəti iclası keçirilib.

Elm və təhsil nazirinin müavini, Komissiyanın sədri İdris İsayevin rəhbərliyi ilə keçirilən iclasda Komissiya üzvləri və Nazirliyin rəsmiləri iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən elm və təhsil nazirinin müavini İdris İsayev iclasın gündəliyində duran məsələləri iştirakçıların diqqətinə çatdırıb. Nazir müavini Komissiyanın tərkibində müvafiq ixtisaslar üzrə yeni təhsil proqramlarının hazırlanması ilə bağlı yaradılmış İşçi qruplarının üzvlərinə prosesdə aktiv iştirak etdiklərinə görə təşəkkürünü bildirib.



İclasda komissiya üzvləri ilə birgə magistratura səviyyəsində təhsilin məzmununun təkmilləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Çıxış edənlər ölkənin sosial-iqtisadi inkişaf tələblərinə uyğun olaraq magistratura səviyyəsində mütəxəssis hazırlığının keyfiyyətinin artırılmasının vacibliyini vurğulayıblar.

Daha sonra təqdimatla çıxış edən komissiyanın üzvü, nazirliyin Elm, ali və peşə təhsili şöbəsinin müdiri Turxan Süleyman ali təhsil pilləsinin magistratura səviyyəsi üzrə ixtisaslaşmaların yeni siyahısı və magistratura səviyyəsi üzrə təhsil proqramlarının çərçivə sənədinin yekun versiyası haqda iştirakçılara məlumat verib. Şöbə müdiri əlavə edib ki, İşçi qrupları tərəfindən magistratura səviyyəsində 10 ixtisas qrupunun ümumilikdə 129 ixtisası üzrə 925 ixtisaslaşma təklif edilib.

Görüş iştirakçılarının müzakirələrinə əsasən, səsvermə nəticəsində sənədlərə razılıq verilib.

İclas müzakirə formatında davam etdirilib.

Qeyd edək ki, sözügedən Komissiyanın tərkibində Təhsil ixtisasları qrupu, Humanitar və sosial ixtisaslar qrupu, Mədəniyyət ixtisasları qrupu, İqtisadiyyat və idarəetmə ixtisasları qrupu, Təbiət ixtisasları qrupu, Texniki və texnoloji və Xüsusi təyinatlı ixtisas qrupları, Kənd təsərrüfatı ixtisasları qrupu, İdman və xidmət ixtisasları qrupu, Əsas (baza ali) tibb təhsili səviyyəsi və Səhiyyə ixtisasları qrupu olmaqla 9 İşçi qrupu yaradılıb. İşçi qruplarına sədrlik ali təhsil müəssisələrinin rəhbərləri və əmək bazarından nümayəndələr olmaqla yeni həmsədrlik mexanizmi əsasında həyata keçirilir. İşçi qruplarının həmsədrləri eyni zamanda Nazirlikdə yeni təhsil proqramlarının hazırlanması məqsədi ilə yaradılmış Komissiyanın üzvləridir.

# Şuşada beynəlxalq uşaq yaradıcılıq festivalı keçiriləcək




İyunun 1-də Şuşada Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə "Şuşa türk xalqları birliyinin mədəniyyət incisidir" adlı beynəlxalq uşaq yaradıcılıq festivalı keçiriləcək. Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən festivalda türk dövlətlərinin məktəbliləri iştirak edəcəklər.

Beynəlxalq yaradıcılıq festivalının təşkilində məqsəd türkdilli dövlətlərdən olan uşaqlar arasında dostluq, qardaşlıq, əməkdaşlıq münasibətlərini daha da möhkəmləndirmək, uşaqlara öz ölkələrinin tarix və mədəniyyətini layiqincə təmsil etmək üçün şərait yaratmaq, eləcə də Şuşa şəhərinin füsunkar gözəlliyini tanıtmaqdır.

Konsert proqramında türk dövlətlərinin bədii kollektivlərinin 300 üzvü ölkələrinin musiqi və rəqs mədəniyyətini tamaşaçılara təqdim edəcək.

Festivalda həmçinin tanınmış mədəniyyət və incəsənət xadimləri, 150-yə yaxın məktəbli, şəhid övladları tamaşaçı qismində iştirak edəcəklər.

Layihə çərçivəsində qonaqlar 26 may — 2 iyun tarixlərində ekskursiyalarda da iştirak edəcək, ölkəmizin zəngin təbiəti, tarixi-memarlıq abidələri, quruculuq işləri ilə tanış olacaqlar.

# Ali təhsil və dəyişən tələblər

**Bu günlərdə Elm və Təhsil Nazirliyində yeni ali təhsil proqramlarının hazırlanması məqsədilə yaradılmış Komissiyanın ikinci iclası keçirilib. İclasda yeni təhsil proqramlarının qəbulu, ixtisaslaşmaların həyata keçirilməsi, magistratura səviyyəsində təhsil proqramlarının çərçivə sənədinin təsdiqi və növbəti addımların müzakirəsi olub. Magistratura səviyyəsində təhsilin məzmununun təkmilləşdirilməsi, ölkənin sosial-iqtisadi inkişaf tələblərinə uyğun olaraq mütəxəssis hazırlığının keyfiyyətinin artırılmasının vacibliyi qeyd olunub. Elm və Təhsil Nazirliyinin Radiasiya Problemləri İnstitutunun baş elmi işçisi, fizika elmləri doktoru professor Elçin Hüseynov “Azərbaycan müəllimi”nə müzakirə olunan məsələlərlə bağlı fikirlərini bölüşüb.**



*Elçin HÜSEYNOV:*

## “Yeni ixtisasların yaradılması günümüzün qaçılmaz zərurətinə çevrilib”

### Yeni ali təhsil proqramlarının hazırlanması ölkəmiz üçün strateji əhəmiyyət daşıyan bir prosesdir

*- Yeni təhsil proqramları, ixtisaslaşmaların həyata keçirilməsi hansı zərurətdən irəli gəlir?*

- Hazırkı dövrdə dünya elmi-texniki inqilabın təsiri ilə fundamental transformasiyalar yaşayır. Rəqəmsallaşma, süni intellekt, yaşıl texnologiyalar, biotexnologiya və digər sahələr qlobal inkişafın aparıcı vektorları kimi çıxış edir. Bu proses fonunda bir çox ənənəvi ixtisaslar öz funksionallığını və əmək bazarındakı üstünlüyünü ya qismən, ya da tamamilə itirməkdədir. 50 və ya 100 il öncə aktual olan sahələrin bu gün real iqtisadiyyatda yerini qoruyub saxlaması üçün onların ciddi şəkildə yenidən dəyərləndirilməsinə ehtiyac var. Belə bir şəraitdə ali təhsil sisteminin dəyişən tələblərə adekvat cavab verə bilməsi üçün struktur və məzmun baxımından çevik və dayanıqlı islahatlara ehtiyac duyulur. Bu islahatlar ölkə olaraq həm qlobal əmək bazarında rəqabət qabiliyyətimizi, həm də daxili tələbatı qarşılamaq imkanlarımızı daha da artıracaq. Bu səbəbdən yeni ixtisasların yaradılması və mövcud ixtisasların müasirləşdirilməsi günümüzün qaçılmaz zərurətinə çevrilmişdir.

Təhsil proqramlarının yenilənməsi bu kontekstdə sadəcə kurikulum dəyişiklikləri anlamına gəlmir; bu, əslində yeni bilik strukturlarının, bacarıq əsaslı yanaşmaların, praktik və interdisiplinar təlim modellərinin tətbiqi ilə müşayiət olunan sistemli bir transformasiyadır. Yeni proqramlar həm beynəlxalq trendlərlə ayaqlaşmalı, həm də ölkəmizin milli maraqlarını və strateji inkişaf prioritetlərini nəzərə almalıdır.

Bundan əlavə, təhsil proqramları təkcə iqtisadi və texnoloji ehtiyaclara cavab verməklə kifayətlənməməlidir. Onlar eyni zamanda milli dəyərlərə əsaslanan, milli kimliyi və vətəndaş məsuliyyətini formalaşdıran bir ideoloji çərçivəyə də sahib olmalıdır. Gələcəyin mütəxəssisləri təkcə bilikli və bacarıqlı deyil, eyni zamanda mənəvi baxımdan da yetkin, milli düşüncəli və sosial məsuliyyətli fərdlər olmalıdırlar. Bu baxımdan, yeni ali təhsil proqramlarının hazırlanması və ixtisaslaşmaların aktuallaşdırılması ölkənin sosial-iqtisadi inkişafı üçün strateji əhəmiyyət daşıyan bir prosesdir. Burada iştirak edən bütün tərəflərin - dövlət qurumlarının, ali təhsil müəssisələrinin, iş dünyasının və tələbələrin fəal əməkdaşlığı vacibdir. Yalnız bu halda ali təhsil sistemimiz həm qlobal trendlərə uyğunlaşa, həm də milli inkişafı təmin edə bilər.

### Ənənəvi ixtisas strukturları əmək bazarının gözləntiləri ilə üst-üstə düşmür

*- Bu mövzu əmək bazarının tələbləri, dünyada populyarlaşan sahələr üzrə mütəxəssis hazırlığı ilə nə dərəcədə əlaqəlidir?*

- Yeni ali təhsil proqramlarının hazırlanması və ixtisaslaşmaların yenilənməsi əmək bazarının cari və perspektiv tələblərinə uyğun mütəxəssis hazırlığının təmin olunması baxımından strateji əhəmiyyət daşıyır. Müasir dövrün qlobal trendləri, texnoloji inqilablar və cəmiyyətlərin inkişaf dinamikası göstərir ki, artıq ənənəvi ixtisas strukturları bir çox hallarda əmək bazarının gözləntiləri ilə üst-üstə düşmür. Bu səbəbdən ali təhsil sistemi təkcə elmi və nəzəri biliklərin ötürüldüyü platforma deyil, eyni zamanda real sektorun tələblərinə çevik reaksiya verən və bu tələbləri qabaqlayan funksional bir institut kimi fəaliyyət göstərməlidir.

Təbii ki, yaradılan yeni ixtisaslar və yenilənən proqramlar yalnız mövcud tendensiyalara cavab verməklə kifayətlənməməli, eyni zamanda gələcək əmək bazarının tələblərini proqnozlaşdıraraq onun üçün baza yaratmalıdır. Bu baxımdan tələb və təklif balansı əsas prinsip kimi daim diqqətdə saxlanılmalıdır. Təhsil sisteminin məqsədi yalnız diplomlu gənclər yetişdirmək deyil, həm də bu gənclərin bilik və bacarıqlarının iqtisadiyyatın real ehtiyacları ilə uzlaşmasını təmin etməkdir.

Son illərdə dünyada süni intellekt, maşın öyrənməsi, proqram mühəndisliyi, data analitikası, biotexnologiya, yaşıl enerji texnologiyaları, kiber təhlükəsizlik və radiasiya və nüvə texnologiyaları kimi sahələrdə mütəxəssis tələbi sürətlə artır. Bu sahələrdə ixtisaslaşma, təkcə inkişaf etmiş ölkələrdə deyil, Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə də prioritet istiqamətlərdən biri kimi çıxış edir. Çünki bu sahələr, bir tərəfdən ölkələrin texnoloji suverenliyini təmin edir, digər tərəfdən isə beynəlxalq əmək bölgüsündə daha yüksək dəyər zəncirinə inteqrasiyasına şərait yaradır.

Burada xüsusi olaraq vurğulanmalı məqam ondan ibarətdir ki, ixtisasların seçimi zamanı yalnız beynəlxalq populyarlıq meyarı ilə hərəkət etmək düzgün deyil. Milli kontekstə uyğunluq və ölkənin strateji inkişaf hədəflərinə xidmət prinsipi də önəmli şərtlərdəndir. Məsələn, süni intellekt və proqramlaşdırma kimi sahələr həm qlobal miqyasda aktuallığını qoruyur, həm də Azərbaycanın rəqəmsal inkişaf gündəliyinə uyğun olaraq daxili bazarda mühüm rol oynayır. Radiasiya və nüvə texnologiyaları isə ölkənin enerji təhlükəsizliyi, tibb, sənaye və müdafiə sahələrində strateji ehtiyaclarını qarşılamaq baxımından mühüm əhəmiyyətə malikdir. Lakin bəzi sahələr var ki, hərçənd onlar beynəlxalq miqyasda müasir və texnoloji cəhətdən irəlidə görülməsinə baxmayaraq, hələlik ölkə daxilində bu sahələr üzrə tətbiq imkanları və reallıqda bu kimi sahələrin perspektivləri məhduddur. Məsələn, kosmonavtika sahəsi yüksək elmi və texnoloji potensiala malikdir və dünyada intensiv inkişaf edir, lakin hazırkı mərhələdə Azərbaycanın kosmik sənayesi bu sahə üzrə kütləvi mütəxəssis tələbi yaratmır. Buna görə də, belə ixtisaslar üzrə təlim proqramları yalnız elmi tədqiqat və ya ixtisaslaşmış hazırlıq səviyyəsində nəzərdən keçirilməli, əsas prioritet isə real və proqnozlaşdırılan ehtiyaclara yönəldilməlidir.

Digər mühüm aspekt isə odur ki, müasir təhsil proqramları sadəcə olaraq bilik ötürməyə deyil, praktik bacarıqların formalaşdırılmasına, tənqidi düşüncə, adaptasiya qabiliyyəti, rəqəmsal savadlılıq və layihə əsaslı öyrənmə kimi XXI əsr bacarıqlarının inkişafına yönəlməlidir. Bu, həm məzmunun modernləşdirilməsini, həm də tədris metodologiyalarının və qiymətləndirmə mexanizmlərinin yenilənməsini tələb edir.

Yekun olaraq demək olar ki, təhsil sistemində aparılan bu islahatlar, əmək bazarı ilə ali təhsil arasında strukturlaşdırılmış, institusional və uzunmüddətli koordinasiyanın qurulması məqsədinə xidmət edir. Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilən bu prosesdə işəgötürənlərin, akademik dairələrin və tələbə təmsilçilərinin fəal şəkildə iştirak etməsi, hazırlanan proqramların həm praktik faydalılığını, həm də ictimai legitimliyini təmin edir.

### Magistr təhsili elmi kadr hazırlığının səmərəliliyini artırır

*- Magistratura səviyyəsində təhsilin məzmununun təkmilləşdirilməsi ilə bağlı təkliflərə münasibətiniz. Nə kimi təklifləriniz olardı?*

- Hesab edirəm ki, magistratura təhsili məzmun və məqsəd baxımından bakalavrdan ciddi şəkildə fərqlənməlidir. Magistratura təhsili ali təhsil sistemində yalnız ikinci pillə olmaqla kifayətlənmir, o, həm də elmi-tədqiqat fəaliyyətinə keçidin, dərin ixtisaslaşmanın və strateji kadr hazırlığının əsas mərhələsidir. Əvvəla qeyd etmək lazımdır ki, magistr dərəcəsi sırf akademik səviyyə olmaqdan əlavə, elmi fəaliyyətə ilkin hazırlıq və peşəkar istiqamət üzrə dərin ixtisaslaşma mərhələsidir. Təəssüf ki, bəzi hallarda magistratura yalnız formal davam pilləsi kimi qəbul olunur. Halbuki bu səviyyədə təhsil alan şəxs artıq tədqiqat bacarıqları formalaşmış, metodoloji hazırlıq keçmiş, analitik və konseptual düşüncəyə malik bir mütəxəssis olmalıdır.

Magistr proqramlarında elmi-tədqiqatlara və praktikaya inteqrasiya xüsusi əhəmiyyət kəsb edir. Hesab edirəm ki, magistrantlar təhsil aldıqları müddətdə yalnız universitet auditoriyasında deyil, ixtisaslarına uyğun olaraq elmi-tədqiqat institutları, sahəvi laboratoriyalar, sənaye müəssisələri və texnoparklarla birbaşa əlaqəli fəaliyyət göstərməlidirlər. Bu yanaşma tələbənin həm nəzəri hazırlığını, həm də real problemlərin həlli ilə bağlı bacarıqlarını inkişaf etdirəcək. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, elmi-tətbiqi əməkdaşlıq modeli əsasında formalaşdırılmış magistr təhsili həm innovasiya potensialını gücləndirir, həm də elmi kadr hazırlığının səmərəliliyini artırır.

Eyni zamanda, magistr təhsili alan şəxs öz təhsilinin məqsədini və istiqamətini aydın şəkildə bilməlidir. Bu səviyyəyə keçid yalnız “ali diplom almaq” məqsədi ilə olmamalıdır. Magistr təhsilinə başlayan tələbə bilməlidir ki, o, konkret bir sahədə ya elmi fəaliyyətə hazırlanır, ya peşəkar sektor üçün dərinləşdirilmiş biliklərə yiyələnir, ya da pedaqoji fəaliyyətə yönəlir. Bu səbəbdən, magistr proqramları fərqli təyinatlara uyğun modullar əsasında qurulmalı və təhsilalanlara şəxsi inkişaf trayektoriyası seçmək imkanı yaradılmalıdır.

Burada çox mühüm bir prinsipə diqqət çəkmək istərdim: elmi dərəcə praktik məzmun daşımalıdır. Məsələn, əgər magistrant gələcəkdə ümumtəhsil məktəbində ümumi fizika fənnini tədris edəcəksə, onun nüvə fizikası və ya kosmologiya kimi sahələrdə dərin ixtisaslaşmaya yönəldilməsi tədris effektivliyi baxımından əsaslı nəticə verməyə bilər. Bu zaman onun üçün fizikanın əsasları, pedaqoji metodologiyalar, şagird yönümlü yanaşmalar və laboratoriya təcrübələri daha əhəmiyyətli olmalıdır. Beləliklə, məqsədli və kontekstual ixtisaslaşma prinsipi bütün magistr proqramlarında tətbiq olunmalıdır. Digər tərəfdən, tədqiqat yönümlü magistr proqramlarında elmi yazı bacarıqları, tədqiqat metodologiyası, məlumat bazaları ilə işləmək, eksperiment dizaynı və nəticələrin təhlili kimi komponentlər daha çox yer almalı, dissertasiya işi isə formal tələbdən çıxaraq orijinal töhfə verməyə yönəlmiş tədqiqat formasını almalıdır. Həmçinin magistr təhsilinin beynəlmiləlləşməsi və rəqəmsallaşması istiqamətində də təkmilləşmələr aparılmalıdır. Xarici universitetlərlə ikili diplom proqramları, onlayn resurslardan istifadənin artırılması, elmi məqalələrin yazılması və təqdimatı üzrə təlimlərin təşkili tələbələrin qlobal akademik mühitə inteqrasiyasını sürətləndirəcək. Bu, Azərbaycanın ali təhsil sisteminin beynəlxalq reytinqlərdə irəliləməsinə və elmi məhsuldarlığın artmasına da töhfə verəcəkdir.

Yekun olaraq demək istərdim ki, magistratura təhsili sadəcə daha yüksək diplom deyil, ölkənin intellektual, elmi və strateji potensialının formalaşdığı əsas mərhələ kimi dəyərləndirilməlidir. Ona görə də bu səviyyədə təhsilin məzmunu, strukturu və təşkilati modeli yeni yanaşmalar əsasında yenidən qurulmalı, “səviyyə fərqi” yalnız diplomda deyil, tədrisin keyfiyyətində və məqsədində öz əksini tapmalıdır.

**Oruc MUSTAFAYEV**

---

# MƏKTƏB VƏ MÜƏLLİMLƏRİ GƏLƏCƏYİN TƏHSİLİNƏ

## NECƏ HAZIRLAYAQ?

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) “Təhsilin formalaşma tendensiyaları” adlı son hesabatına əsasən, dünya üzrə təhsil müəssisələri innovativ həllər tələb edən çoxsaylı çətinliklərlə üzüzədir. Texnologiyaların təhsilə inteqrasiyası üzrə beynəlxalq səviyyədə tanınmış mütəxəssis Nam Ngo Thanh Vyetnamın Ho Şi Min şəhərindəki “Inspire Schools” ümumtəhsil müəssisəsinin direktorudur. İnteraktiv tədris metodlarına dərin maraq göstərən N.Thanh müəllim-şagird münasibətlərinə dair çoxsaylı məqalə müəllifidir. Onun “Dünya müəllimlərinin məqalələri” rubrikasından oxuculara təqdim etdiyimiz bu məqaləsində məktəblərin və müəllimlərin getdikcə mürəkkəbləşən dünyaya şagirdləri hazırlamaq üçün həyata keçirə biləcəkləri praktik strategiyalar araşdırılır. N.Thanh qeyd edir ki, təhsil mühiti texnoloji inkişaf, iqlim dəyişikliyi və dəyişən geosiyasi dinamikalar kimi qlobal tendensiyaların təsiri altında sürətlə dəyişir. Məktəblərin və müəllimlərin bu çağırışlara cavab verməyə və yaranan imkanlardan faydalanmağa hazır olmaları üçün düşünülmüş strategiyalar və qabaqlayıcı addımlar vacibdir. Aşağıda məktəblərin və müəllimlərin gələcəyə hazırlıq üçün diqqət yetirməli olduqları əsas sahələr qeyd olunub.



### Texnologiyaların məsuliyyətli inteqrasiyası

Texnologiyada, xüsusilə süni intellekt (Sİ), virtual reallıq (VR) və əşyaların interneti (IoT) sahəsindəki nailiyyətlər təhsili dəyişir. Sİ tədris prosesini fərdiləşdirə, inzibati işləri avtomatlaşdıra və real vaxtda geri dönüş verə bilər. VR, şagirdlər üçün çətin mövzuları daha əlçatan və maraqlı edən immersiv öyrənmə imkanları yaradır. Lakin texnologiyanın tətbiqi düşünülmüş şəkildə həyata keçirilməlidir.

Məktəblər rəqəmsal savadlılığa önəm verməli, şagirdləri və müəllimləri rəqəmsal aləmdə məsuliyyətli naviqasiya bacarıqları ilə silahlandırmalıdır. Bu, onlayn məzmunun tənqidi qiymətləndirilməsi, şəxsi məlumatların qorunması və texnologiyadan etik istifadə anlayışlarını əhatə edir. Eyni zamanda, məlumat məxfiliyi və ədalət məsələlərinin həlli, cihazlara və internetə çıxışın təmin olunması rəqəmsal bərabərsizliyin qarşısını almaq üçün həlledicidir.

### Psixi sağlamlıq və rifaha önəm verilməsi

Son dövrlərdə tələbə və müəllimlər arasında stres, narahatlıq və s. problemlərin artması ilə psixi sağlamlıq qlobal prioritetə çevrilib. Məktəblər sosial-emosional öyrənməni tədris proqramına daxil etməli və açıq dialoq üçün təhlükəsiz mühit yaratmalıdır. Psixoloji məsləhətçilərə və resurslara çıxış təmin edilməli, müəllimlər isə şagirdlərdə stres əlamətlərini tanımaq və onlara cavab vermək üçün təlimatlandırılmalıdırlar.

Akademik və dərsdənkənar fəaliyyətlər arasında sağlam balansın yaradılması stresin azalmasına kömək edə bilər. Fiziki aktivlik, “mindfulness” (zehinlilik) praktikaları və yaradıcılıq yönümlü fəaliyyətlərin təşviqi rifahı prioritetə çevirən mühitin formalaşmasına şərait yaradır.

### Davamlı inkişaf və ekoloji təhsilə diqqət

İqlim dəyişikliyi və ətraf mühitin tənəzzülü artdıqca, təhsil sistemləri davamlı təcrübələrin təşviqində əsas rol oynayır. Məktəblər tədris proqramlarına ekoloji savadlılığı daxil etməli, “vahid sağlamlıq” yanaşması ilə insan, heyvan və ətraf mühit sağlamlığı arasındakı əlaqələri izah etməlidirlər. Məktəb bağlarının salınması, təmizlik aksiyaları və tullantıların azaldılması kimi praktik təşəbbüslər bu dərsləri praktik təcrübəyə, yerli təşkilatlarla əməkdaşlıq isə şagirdlərə real dünya ilə əlaqəli öyrənmə imkanları təqdim edərək onları ekoloji problemlərin həllində fəal iştirakçıya çevirə bilər.

### Qlobal vətəndaşlığın inkişafı

Dünya bir-birilə daha çox əlaqəli hala gəldikcə, qlobal vətəndaşlığın inkişafı önəm qazanır. Məktəblər mədəniyyətlərarası anlayış, empatiya və müxtəlifliyə hörmət kimi dəyərləri vurğulamalıdır. Bu, çoxdilli təhsil, mübadilə proqramları və qlobal problemləri əhatə edən layihə əsaslı təhsil vasitəsilə həyata keçirilə bilər.

Müəllimlər bu dəyərlərin aşılanmasında əsas rol oynayır. Peşəkar inkişaf proqramları onları miqrasiya, bərabərsizlik və münaqişələrin həlli kimi mürəkkəb mövzular üzrə müzakirələrə rəhbərlik etmə bacarıqları ilə təmin etməlidir. Tənqidi düşüncə və açıqlığı təşviq etməklə, məktəblər şagirdləri müxtəlif və qarşılıqlı bağlı dünyada müsbət töhfə verə biləcək fərdlərə çevirə bilər.

### Karyera keçidlərinə hazırlıq

Texnoloji inkişaflar və davamlı inkişafa yönəlmiş tələblər əmək bazarını sürətlə dəyişir və təhsil yollarının yenidən düşünülməsini zəruri edir. Məktəblər texniki biliklərlə yanaşı, kommunikasiya, uyğunlaşma və əməkdaşlıq kimi yumşaq bacarıqları da əhatə edən balanslı bacarıqların inkişafına fokuslanmalıdır.

Sənaye ilə tərəfdaşlıq şagirdlərə “yaşıl işlər” və rəqəmsal peşələr sahəsində yaranan yeni karyera imkanları haqqında məlumat verə bilər. Təcrübə proqramları, mentorluq və peşə hazırlığı təşəbbüsləri təhsil ilə məşğulluq arasındakı boşluğu azalda bilər. Bundan əlavə, davamlı öyrənmə mədəniyyətinin təşviqi tələbələrin gələcək əmək bazarının tələblərinə uyğunlaşmalarını təmin edir.

### Ədalət və inklüzivliyin artırılması

Təhsildə bərabərsizliyin aradan qaldırılması sosial həmrəyliyin möhkəmləndirilməsi üçün vacibdir. Məktəblər bütün şagirdlərin - onların sosial-iqtisadi vəziyyətindən, cinsindən və qabiliyyətindən asılı olmayaraq - keyfiyyətli təhsilə çıxışını təmin etməlidir.

Diferensiallaşdırılmış tədris və dəstəkləyici texnologiyalar kimi inklüziv praktikalar müxtəlif tədris ehtiyaclarını qarşılamağa kömək edə bilər.

Təmsilçilik də mühüm əhəmiyyət daşıyır. Məktəblər tədris proqramlarını və materiallarını müxtəlif mədəniyyətlərin, cinslərin və icmaların təcrübə və töhfələrini əks etdirməklə zənginləşdirməlidir. Bu cür yanaşma hər bir şagirdin dəyərli və güclü olduğunu hiss etdiyi mühit yaradır.

### Dayanıqlıq və uyğunlaşma qabiliyyətinin gücləndirilməsi

COVID-19 pandemiyası təhsil sistemlərində dayanıqlığın vacibliyini bir daha göstərdi. Məktəblər təbii fəlakətlər, münaqişələr və ya səhiyyə böhranları kimi pozucu hallara hazırlıqlı olmalıdır. Bu, zərurət olduqda onlayn təhsilə keçid imkanını da nəzərdə tutan fövqəladə hallar planlarının hazırlanmasını tələb edir.

Müəllimlər müxtəlif vəziyyətlərdə şagirdlərin marağını və öyrənmənin davamlılığını təmin etmək üçün uyğunlaşan tədris metodları ilə təlimatlandırılmalıdır. Həmçinin, şagirdlərdə “böyümə düşüncə tərzinin” təşviqi onların çətinlikləri qəbul etməsinə və uğursuzluqları öyrənmək üçün fürsət kimi görməsinə yardım edir.

### İcmaların və maraqlı tərəflərin cəlb olunması

Məktəblər, ailələr və icmalar arasında əməkdaşlıq hərtərəfli və keyfiyyətli təhsil üçün həyati əhəmiyyət daşıyır. Məktəblər valideynləri və yerli təşkilatları təhsil prosesinə fəal şəkildə cəlb etməli, şagirdlər üçün dəstək şəbəkəsi yaratmalıdırlar.

Maraqlı tərəflərin iştirakı həmçinin təhsil siyasəti və təşəbbüslərin formalaşmasına təsir göstərərək onların aktuallığını və effektivliyini təmin edə bilər. Məsələn, yerli icmalarla tərəfdaşlıq, maliyyə imkanları məhdud olan məktəblər üçün əlavə resurslar təmin edə və ya şagirdlər üçün mentorluq imkanları yarada bilər.

### Nəticə

Gələcəyin təhsilinə hazırlıq məktəblərin, müəllimlərin və siyasətçilərin koordinasiyalı səylərini tələb edir. Texnologiyalardan məsuliyyətli istifadə, psixi sağlamlığa üstünlük verilməsi, dayanıqlığın təşviqi və bərabərliyin təmin olunması vasitəsilə təhsil sistemləri şagirdləri sürətlə dəyişən dünyada inkişaf etmək üçün zəruri bacarıq və dəyərlərlə təmin edə bilər. Sabahın problemləri meydana çıxmazdan əvvəl bu gün atılan qabaqlayıcı addımlar təhsilin şəxsi inkişaf və ictimai tərəqqi üçün güclü bir vasitə olaraq qalmasına təminat verəcəkdir.

**Oruc MUSTAFAYEV**

# Şagirdlərin 98 faizi monitorinqdə iştirak edib

## Agentlikdən monitorinqlərlə bağlı

### AÇIQLAMA

17 və 18 may tarixlərində dövlət ümumi təhsil müəssisələrinin IV və VI sinifləri üzrə monitorinq keçirilib. Monitorinq prosesi uğurla yekunlaşıb, iştirakçılıq təmin olunub. Bu barədə “Azərbaycan müəllimi”nə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Vəfa Yaqublu açıqlama verib.







Azərbaycan və rus bölməsi üzrə 50 minə yaxın VI sinif şagirdi biliyini sınayıb.

VI sinif şagirdlərinə tədris dili fənni üzrə 25 qapalı sual, təbiət fənni üzrə 25 qapalı, riyaziyyat fənni üzrə isə 20 qapalı və 5 açıq sual təqdim olunub. Sualların cavablandırılması üçün şagirdlərə 180 dəqiqə vaxt verilib.

Qeyd edək ki, 17-18 may 2025-ci il tarixlərində keçirilmiş monitorinqlərdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki müəssisələrdə IV və VI siniflər üzrə ümumilikdə 7200-dən çox şagird kompüter əsaslı monitorinqdə iştirak edib.



O bildirib ki, ölkə üzrə dövlət ümumi təhsil müəssisələrinin IV və VI siniflərində təhsil alan şagirdlərin təxminən 98 faizi monitorinqdə iştirak edib:

“Bildiyiniz kimi, bu il ilk dəfə olaraq monitorinqin müəyyən bir hissəsi rəqəmsal formatda təşkil edilib. Bakı Şəhəri üzrə Təhsil İdarəsi və Abşeron-Xızı Regional Təhsil İdarəsinin tabeliyində olan bir sıra ümumi təhsil müəssisələrinin şagirdlərinin cəlb olunduğu, elektron qaydada təşkil edilən monitorinqdə 96% iştirakçılıq təmin edilib.

Həm agentliyin, həm də regional təhsil idarələrinin əməkdaşları tərəfindən prosesin təşkili izlənilib. İştirakçılığın təmin olunması, eyni zamanda hər hansı xoşagəlməz halların baş verməməsi üçün müvafiq addımlar atılıb”.

Qurum rəsmisi onu da qeyd edib ki, monitorinqin məqsədi şagirdlərin bilik səviyyəsini ölçməklə yanaşı, həm müəllimlərə, həm proqram tərtibçilərinə, həm də təhsili idarəetmə orqanlarına vacib olan təhlilləri aparmaq üçün məlumat toplamaqdır.

***

Mayın 18-də paytaxtdakı ümumi təhsil müəssisələrinin VI sinifləri üzrə monitorinq təşkil olunub. VI siniflərdə monitorinq tədris dili, təbiət və riyaziyyat fənləri üzrə aparılıb.

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən verilən məlumata görə, paytaxtda monitorinq üçün ayrılan 92 imtahan mərkəzində

***

İlk dəfə Ağdam rayon Sarıcalı, Ağdərə rayon Həsənriz, Suqovuşan kənd və Xankəndi şəhər N.Gəncəvi adına 4 nömrəli tam orta məktəblərdə VI siniflərin monitorinqi keçirilib.

Regional Təhsil İdarəsindən “Azərbaycan müəllimi”nə verilən məlumata görə, monitorinq tədris dili və riyaziyyat fənləri üzrə aparılıb.

Monitorinqdə 9603 şagird iştirak edib.

***

Naxçıvanda 18 mərkəzdə təşkil olunan monitorinqdə 4600-dən artıq şagird - ümumtəhsil məktəblərində təhsil alan VI sinif şagirdlərinin 98.8 faizi iştirak edib.

Monitorinqdə şagirdlərə tədris dili və təbiət fənlərinin hər birindən 25 qapalı, riyaziyyat fənni üzrə 20 qapalı və 5 açıq sual təqdim olunmaqla ümumilikdə 75 sual təqdim edilib və sualları cavablandırmaq üçün 180 dəqiqə vaxt ayrılıb.

Qeyd edək ki, monitorinqin nəticəsi şagirdlərin summativ qiymətləndirmə ballarına, eləcə də onların sinifdən-sinfə keçmələrinə təsir göstərmir. Monitorinqin keçirilməsində məqsəd şagird nailiyyətlərinin yaxşılaşdırılması, məktəblilərdə müvafiq standartlar üzrə bilik və bacarıqların hansı səviyyədə formalaşdığının müəyyən edilməsi və tədrisin keyfiyyətinin artırılması istiqamətində tədbirlərin görülməsidir.

# “Son zəng”i yaddaqalan etmək üçün...

## ““Son zəng” sadəcə əyləncə və şəkil çəkdirmə mərasimi deyil”

“Son zəng”... Güllərlə bəzədilmiş lövhələr, sinif otaqları, məktəb dəhlizlərində, həyətində səsləndirilən təhsil həyatından söz açan gözəl mahnılar, məktəbli formasında olan sevinclə qarışıq 11 illik orta təhsil həyatına vida ediklərinə görə kədərlənən məzunlar. Və bir də onlara yüksək təhsil verən, uğurları ilə hər zaman sevinən, fəxr edən sevimli müəllimləri, eləcə də böyüdüb boya-başa çatdıran valideynləri. Əslində, bütün bunlar “Son zəng” gününün özünəməxsus ovqatını yaratmaqla təsəvvürümüzdə gözəl bir mənzərəni canlandırır. Bu, hər bir şagirdin yaddaşında xüsusi yer tutan, həm sonun, həm də başlanğıcın simvolu olan bir gündür. Lakin son illər bu gözəl ənənə ətrafında yaranan mübahisələr, ifratçılıq meylləri və süni şouya çevrilən mərasimlər “Son zəng”in mahiyyətini arxa plana atmaqdadır. Təəssüf ki, məktəb illərinin yekunu kimi nəzərdə tutulan bu tədbir bəzən cəmiyyətin sosial-iqtisadi təbəqələşməsini də əks etdirən bir yarış meydanına çevrilir. Bu kimi neqativ hallar da ictimaiyyət tərəfindən haqlı olaraq narazılıqla qarşılanır. Təbii ki, Elm və Təhsil Nazirliyi və Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi hər zaman bu məsələdə öz qəti mövqeyini ortaya qoyaraq belə halların qəbuledilməz olduğunu bildirir. Ancaq çox təəssüf ki, bəzi ümumtəhsil müəssisələrinin direktorları məktəb həyatının ən gözəl hadisəsini “şou”ya çevirməklə onu dəyərdən salır, əsl mahiyyətindən uzaqlaşdırır.

Bəs “Son zəng” əslində necə keçirilməlidir? Bu günün məqsədi nə olmalıdır, onu məktəb və məzun üçün həqiqətən yaddaqalan edən amillər hansılardır? Həmin günün təşkilində nələrə diqqət yetirilməlidir?

“Azərbaycan müəllimi” ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasının müdiri, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmovun məsələ ilə bağlı fikirlərini öyrənib.





### Ənənəyə çevrilən “Son zəng”

Fərrux müəllim bildirir ki, “Son zəng” keçən əsrin 60-cı illərindən Azərbaycan məktəblərində ənənəyə çevrilib. Ümumtəhsil məktəblərində məzunlar üçün “Son zəng”in ibtidai sinif şagirdi tərəfindən simvolik çalınması onların 11 illik təhsil həyatının başa çatdığını simvolizə edən əlamətdar bir gündür. Bu önəmli hadisə məzunların həyatının keyfiyyətcə yeni, daha yetkin, məsuliyyətli bir mərhələsinin başlanğıc günüdür. Məktəb direktoru, sinif rəhbəri və fənn müəllimləri tərəfindən 11 il müddətində məzunların əldə etdikləri bilik, bacarıq və uğurlar emosional şəkildə dilə gətirilir, fəaliyyətləri təqdir edilir. Məzunlar isə müəllimlərin onlara olan münasibətini, çəkdikləri zəhməti xatırlayır, dəyərləndirir və minnətdarlıq duyğularını ifadə edirlər.

Professor deyir ki, məzunların ömür boyu xatırlayacağı “Son zəng” sadəcə bir mərasim deyil, ayrılıqla vüsal arasında sanki mənəvi bir körpü, həyatlarında əhəmiyyətli dönüş nöqtəsidir. Bu gün həm də gələcəyə doğru inamlı baxış deməkdir.

### “Son zəng” tədbirləri sadəlik və səmimiyyət əvəzinə şouya çevrilib

Həmsöhbətimiz təəssüf hissi ilə söyləyir ki, bəzən “Son zəng” tədbirlərində əsas diqqət şouya, musiqi və rəqs nömrələrinə yönəlir: “Müasir dövrdə “Son zəng” tədbirləri əksər hallarda sadəlik və səmimiyyət əvəzinə şouya çevrilir. Tədbirin keçirilməsi məqsədilə valideynlərdən pul yığılması, restoranların icarəyə götürülməsi yolverilməzdir.

Bəzən şahidi oluruq ki, tədbirlər məktəbdə, müəllimlərin və valideynlərin nəzarəti altında deyil, şadlıq saraylarında keçirilir. Bəzi məzunların “Son zəng”i məktəb qaydalarını pozmaq üçün fürsət kimi qəbul etməsi nəticəsində əxlaqi və davranış problemləri yaranır, ictimai qaydalar pozulur. Belə şou məclislərinin heç bir əxlaqi, emosional və mənəvi dəyəri olmur. Əslində isə “Son zəng”in keçirilməsi məzunların yaddaşında təmtəraqlı olması ilə deyil, mənalı bir xatirə olaraq qalmalıdır”.

Fərrux müəllimin sözlərinə görə, şou formatlı belə tədbirdə məzunların 11 illik təhsil dövründə əldə etdiyi uğurlar, iştirak etdiyi layihələr, müəllim-şagird münasibətləri və kollektivin ortaq xatirələri ya ümumiyyətlə qeyd olunmur, ya da bunlara səthi şəkildə toxunulur. Halbuki bu gün, şagirdlərin keçdiyi yolun dəyərləndirilməsi, müəllimlərin zəhmətinin tanıdılması və məktəb mühitinə təşəkkür bildirilməsi üçün bir fürsətdir. Məzunların təhsil dövrü unudulmamalı, onların fəaliyyətinə dəyər verilməlidir.

### “Təmtərağın arxasında mənanı itirməyək”

Fərrux müəllimin fikrincə, “Son zəng” uzun illərdir formalaşmış elə bir məktəb ənənəsidir ki, onun davam etməsi zəruri və vacibdir: “Bəs bunu necə təşkil etmək olar? Düşünürəm ki, “Son zəng” məktəbin binasında, müəllimlərin, dəvət olunan tanınmış ziyalıların və valideynlərin iştirakı ilə təşkil edilməlidir. Bu, həm təhlükəsizlik, həm də nizam-intizam baxımından vacibdir. Tədbirin məktəb binasında, tədris mühitində baş tutması, şagirdlərin və müəllimlərin bir-birinə təşəkkür etməsi, xatirələrin bölüşülməsi əsas məqsəd olmalıdır. Kiçik səhnəciklər, məktəb illərini əks etdirən videoçarxlar, müəllimlərin və valideynlərin qısa çıxışları tədbiri daha emosional və təsirli edə bilər. Həmin gün şagirdlər məktəbin həyətində (və ya xüsusi ayrılmış bir sahədə) xatirə ağacı əkə və ya təhsil müəssisəsinin kitabxanasına kitab hədiyyə verə bilərlər. Bütün əyləncəli və musiqili tədbirlərin iştirakçıları məzunların özləri olmalıdır. Tədbir elə təşkil edilməlidir ki, orada əlavə resurslara (yersiz bər-bəzəyə, musiqi qruplarına, şou nümayəndələrinə, musiqi avadanlıqlarına, restoran xərclərinə və s.) ehtiyac yaranmasın”.

Fərrux Rüstəmovun sözlərinə görə, məzunlar dərk etməlidir ki, “Son zəng” sadəcə əyləncə və şəkil çəkdirmə mərasimi deyil, təhsil dövrünün yekunu və yeni bir həyata keçidin başlanğıcıdır: “Hər bir məktəb bu günü öz məzunları üçün mənəvi bir başlanğıca çevirməyi bacarmalıdır. Çünki zəng səsi sonda deyil, yeni başlanğıcda çalınır. “Son zəng”in məzmunu sadə olsa da, mənası dərin olmalıdır. Gəlin, təmtərağın arxasında mənanı itirməyək”.

**Samirə KƏRİMOVA**

# “Təhsil mühitinin əyləncə yönümlü şouya çevrilməsi yolverilməzdir”

## Direktorlar “Son zəng” tədbirlərinin təşkilindən danışdılar

Son illərdə bəzi məktəblərdə “Son zəng” tədbirlərinin dəbdəbəli şəkildə keçirilməsi müzakirələrə səbəb olur. Bir çox hallarda bu tədbirlər əsl mahiyyətindən uzaqlaşır, məktəbin nüfuzunu zədələyir. Əslində, “Son zəng” tədbirləri necə keçirilməlidir? Narazılıq yaradan səbəblər hansılardır? “Azərbaycan müəllimi” məsələ ilə bağlı məktəb direktorlarının fikirlərini öyrənib.

Bakı şəhəri 53 nömrəli tam orta məktəbin direktoru Tünzalə Zeynalova hesab edir ki, “Son zəng” tədbirini məzunlar üçün həm həssas, həm də insan həyatının sanki dönüş nöqtəsi kimi qiymətləndirmək olar.

Məktəb direktoru “Son zəng”lə bağlı narazılıqlarının səbəblərindən danışıb: “Təəssüf ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin, Elm və Təhsil Nazirliyinin tapşırıq və təlimatlarına baxmayaraq ayrı-ayrı nümunələrdə məzunlar və valideynlərin təkidi ilə müxtəlif səbəblərdən lüzumsuz rəqabət hissi, cəmiyyətin diqqətini çəkmək və ya sosial status nümayiş etdirmək və s. məqsədilə tədbirin əsas ideyasından uzaqlaşaraq təhsil mühitinin əyləncə yönümlü şouya çevrilməsinin şahidi oluruq ki, bu da yolverilməzdir!”.

Direktorun fikrincə, bu cür xoşagəlməz halların və ənənəvi “Son zəng” tədbirlərinin bayağı forma almamasının bir həll yolu var: “Bu, üst qurumların göndərdiyi müvafiq tapşırıq və tələbləri icra üçün əsas götürmək, şagirdlər arasında fərq qoymamaq, tədbirlərin qaydalarına vahid yanaşma və məktəb mühitinin cəmiyyətin siması olduğunu prioritet kimi qəbul etməkdir”.

Bakı şəhəri 192 nömrəli tam orta məktəbin direktoru Cavad Mustafayevin fikrincə, “Son zəng” yaddaqalan formada keçirilməli, təmtəraqdan imtina olunmalıdır: “2017-ci ildən məktəb direktoru işləyirəm. İşlədiyim dövrdə də “Son zəng” tədbirlərinin mənalı, yaddaqalan olmasının tərəfdarı olmuşam”.

Cavad Mustafayev bildirib ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsindən göndərilən protokolda rəsmi və bədii hissələrin ssenarisi qeyd edilib: “Həmin sənədə əsasən, sinif otaqlarının bəzədilməsinə, bayağı musiqilərə yer verilməsinə ehtiyac yoxdur”.

**Ruhiyyə DAŞSALAHLI**

*Akif Abbasov – 75*

# Elm və zəhmət yolçusu

**Bu** gün mənim üçün sadəcə təqvimdə bir tarix deyil - bu gün mənim əziz qələm yoldaşım, həmkarım, dostum, elm və təhsil yolunda çiyin-çiyinə addımladığım həmmüəllif olduğum, Əməkdar müəllim, pedaqoji elmlər doktoru, professor Akif Abbasovun 75 illik yubileyidir. Bu yazını illərin süzgəcindən keçmiş, hörmətin, dostluğun və minnətdarlığın səmimi ifadəsi kimi qələmə alıram.



Akif Abbasov 1950-ci il mayın 28-də Şirvan (keçmiş Əli Bayramlı) şəhərində Nurağa müəllimin ailəsində anadan olub. Kiçik yaşlarından zəhmətə, kitaba, biliyə olan marağı onu yaşıdlarından fərqləndirirdi. Onun ali təhsil üçün seçdiyi yol da təsadüfi deyildi - 1968-1973-cü illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun (hazırda Azərbaycan Dillər Universiteti) ingilis-Azərbaycan dilləri fakültəsində, 1971-1973-cü illərdə həmin institutun nəzdindəki ikiillik kursda əlavə olaraq ərəb dili şöbəsində təhsil alıb.

1977-ci ildə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun (ARTİ) dissertanturasına qəbul olub və “VIII-X sinif şagirdlərinin hüquq tərbiyəsində məktəb, ailə və ictimaiyyətin əlbir işi” mövzusunda (elmi rəhbər pedaqoji elmlər namizədi, dosent Ə.Ə.Ağayev) namizədlik dissertasiyasını 1987-ci ildə uğurla müdafiə edib. 1995-ci ildə “Məktəbliləri ailə həyatına hazırlamağın nəzəriyyəsi və təcrübəsi” mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib (Elmi məsləhətçisi professor Z.İ.Qaralov).

Alimin elmi fəaliyyəti geniş və çoxşaxəlidir. Onun yaradıcılıq fəaliyyətinin bir neçə istiqamətini qeyd etmək istərdim: elmi, elmi-pedaqoji, elmi kadr hazırlığı, publisistika, bədii yaradıcılıq və tərcümə. Pedaqogika sahəsində apardığı fundamental tədqiqatlar bu gün də istinad mənbəyi olaraq istifadə olunur. Onun elmlər namizədi, daha sonra isə doktorluq dissertasiyalarında qaldırdığı məsələlər yalnız nəzəri deyil, həm də praktiki əhəmiyyət daşıyır. Professor kimi neçə-neçə gənc alimin formalaşmasına dəstək olub.

Professor Akif Abbasovun elmi-pedaqoji kadrların hazırlanması ilə bağlı fəaliyyəti də səmərəlidir. Belə ki, o, 40 fəlsəfə doktoru, 7 elmlər doktoru yetişdirib. 50-dən artıq dissertasiya müdafiəsində opponent olub. Həmçinin Bakı Ali Pedaqoji Qızlar Seminariyasında (hazırda Bakı Qızlar Universitetində) elmi işlər üzrə prorektor işləyərkən (1992-1998-ci illərdə) pedaqogika fənnindən oxuduğu mühazirələr tələbələr tərəfindən maraqla qarşılanıb.

Alim uzun illər ərzində elm və təhsil nazirinin əmri ilə Azərbaycan Dillər Universitetində, Azərbaycan Dövlət Pedaqoji Universitetində, Bakı Slavyan Universitetində, Gəncə Dövlət Universitetində, Bakı Qızlar Universitetində, keçmiş Azərbaycan Müəllimlər İnstitutunda, Azərbaycan Kooperasiya İnstitutunda, həmçinin, Azərbaycan Dövlət Pedaqoji Kollecində dövlət imtahan komissiyasının sədri olub. Bundan başqa müxtəlif ali təhsil müəssisələrində magistr dissertasiyalarının müdafiəsi üzrə dissertasiya şuralarının sədri təyin olunub. Hazırda Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya şurasının Elmi seminarının sədridir.

Akif Abbasovun yaradıcılığında diqqəti cəlb edən digər istiqamət tərcüməçilik fəaliyyətidir. O, “İngiliscə-azərbaycanca pedaqoji-psixoloji lüğət” (1999) və “Azərbaycanca-ingiliscə pedaqoji-psixoloji terminlər lüğəti” (2006, 2019) tərtib edərək nəşrinə nail olub.

Həmçinin elmi yaradıcılıqda olduğu kimi, bədii yaradıcılıqda da eyni uğurla fəaliyyət göstərir. Bir yazıçı kimi də özünü təsdiq edib. O, “Yaxşı dost” pyesinin, “Aldanma sözlərə”, “Acı xatirələr”, “Sultan II Murad” və “Fateh Sultan Məhmət” romanlarının müəllifidir.

Onun qələmindən çıxan bir sıra bədii əsərləri çap olunub. Bizim birgə yaradıcılığımızın nəticəsi olaraq “Qız gəlin köçür”, “Toydan əvvəl və sonra” kitabları oxucuların istifadəsindədir.

Atatürk mövzusu Akif Abbasov yaradıcılığında xüsusi yer tutur. O, türk dünyasının şərəfi və iftixarı, əfsanəvi sərkərdə, dövlət xadimi, Türkiyə Respublikasının yaradıcısı və ilk Prezidenti Mustafa Kamal Atatürkün həyat və fəaliyyətindən bəhs edən 6 kitab qələmə alıb. Onlardan “Samsundan başlanan yol” romanının, “Atatürk” pyesinin,“Atatürk haqqında hekayələr”in (birinci və ikinci kitab), “Böyük türk” (uşaqlar üçün hekayələr) və “Xallı kəpənək” hekayələr kitabının adları qeyd oluna bilər.

Professor Akif Abbasov Təhsil İnstitutunda kiçik elmi işçidən institutun elmi katibi vəzifəsinədək şərəfli bir yol keçib, yaradıcılığının nəticəsi olaraq bədii əsərləri 10, seçilmiş elmi əsərləri 12 cilddə nəşr edilib. 200-dən artıq elmi məqalə, 20-dən artıq dərslik müəllifidir. Onun uzun illər tanınmış psixoloq-alim, psixologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi Əbdül Əlizadə ilə birlikdə yazdığı “Ailə həyatının etika və psixologiyası” dərsliyi orta məktəblərdə tədris olunub. Bundan əlavə ali məktəblər üçün “Milli əxlaq və ailə etikası”, orta ixtisas məktəbləri üçün “Pedaqogika” dərslikləri tələbələrin istifadəsinə verilib. Akademik Hüseyn Əhmədovla birikdə uzun illər ərzində Azərbaycan Televiziyasında apardıqları “Maraq dünyası” verilişləri izləyici auditoriyası tərəfindən həvəslə qarşılanıb. Pedaqogika elmlər doktoru, professor Hikmət Əlizadə ilə birlikdə hazırladıqları “Pedaqogika” dərsliyi bu yaxınlarda yeni redaktədə oxuculara təqdim olundu.

Professor Akif Abbasovun elmi-pedaqoji fəaliyyəti dövlətimiz və hökumətimiz tərəfindən yüksək dəyərləndirilib. O, bir sıra dövlət təltifləri, fəxri adlar və diplomlarla qiymətləndirilib. Belə ki, 1981-ci ildə Respublika Maarif Nazirliyinin Fəxri Fərmanı, 1981-ci ildə Azərbaycan ETPEİ-nin 50 illik yubileyində həmin institutun Fəxri fərmanı, 1986-cı ildə Respublika Maarif Nazirliyinin “Qabaqcıl maarif əlaçısı” döş nişanı, 2007-ci ildə “Qızıl qələm” mükafatını alıb. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə 2006-cı ildə “Tərəqqi” medalı, 2012-ci ildə “Əməkdar müəllim” fəxri adı, 2024-cü ildə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə “Heydər Əliyev 100” yubiley medalı ilə təltif olunub.

Akif müəllim Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin fəal üzvlərindəndir. Həmçinin Pedaqoji və Sosial Elmlər Akademiyasının (Moskva) həqiqi (akademiki) üzvüdür.

Əziz dostum Akif Abbasov həm də böyük ürəyə sahib bir insandır. Onun səmimiyyəti, sadəliyi, təmkinli davranışı və ətrafındakı insanlara olan qayğısı onu tanıyan hər kəsin rəğbətini qazanıb. O, çətin anlarda yol göstərən, uğurlu anlarda isə insanların xoş günlərinə sevinən səmimi bir dostdur. Öz uğurlarını heç vaxt önə çəkməyən, amma başqalarının nailiyyətlərinə sevinən insanlardandır. Bizi birləşdirən yalnız oxşar sahədə işləməyimiz deyil - bizi birləşdirən ortaq dəyərlərdir: elmə sevgi, insanlığa hörmət, vətənə sədaqət.

Mən inanıram ki, onun üçün ən böyük mükafat - yetirmələrinin uğurları və ondan öyrənən insanların minnətdarlığıdır. Bu gün ölkənin müxtəlif yerlərində çalışan müəllimlər, alimlər onun məktəbindən keçib, bədii əsərlərindən ilham alıb.

Əziz qələm yoldaşım, həmkarım, dostum, professor Akif Nurağa oğlu Abbasov, bu 75 il - yalnız rəqəm deyil, zəhmət, fədakarlıq, mərifət, təvazökarlıq və dərin insani dəyərlərlə dolu bir ömür yolunun salnaməsidir. Biz sizinlə fəxr edir və bu yubiley günündə möhkəm cansağlığı, davamlı elmi yaradıcılıq, ailə səadəti və nəvələrin sevinc dolu xoş sədalarını arzulayırıq.

Hələlik bu qədər, qalanları qalsın inşallah, 80 illik yubileydə elmin, insanlığın və dostluğun işığında qeyd edək.

**Hümeyir ƏHMƏDOV,**
*pedaqogika elmləri doktoru, professor, Rusiya Təhsil Akademiyasının xarici üzvü, RTA-nın Əməkdar elm və təhsil xadimi*

## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-64-00
**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4922 **Sifariş** 1075
**Məsul növbətçi:** O.Mustafayev

# Etibarsız sayılır

**Bakı şəhər** 45 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Məmmədova Elvina Oqtay qızına verilmiş A-383132 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2001-ci ildə Umarova Pərvanə Məhəmmədəli qızına verilmiş A-077583 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 177 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Mənsumov Davud İlqaroviçə verilmiş E-557282 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 41 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Nəcəfov Səxavət Ramiz oğluna verilmiş B-271777 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dəniz Yolları Məktəbi** tərəfindən 1991-ci ildə Axundov Mübariz Ərəbəli oğluna verilmiş HT-763288 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes və Kooperasiya Kolleci** tərəfindən 2006-cı ildə Nuriyeva Afaq Rəsul qızına verilmiş BB-II-045613 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2000-ci ildə bitirmiş Məmmədov Cavanşir Babalı oğluna verilmiş A-410919 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 208 nömrəli tam orta məktəbin IX sinfini 1986-cı ildə bitirmiş Cahangirova İlahə Səməndər qızına verilmiş ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Sənaye Pedaqoji Texnikumu** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollec) tərəfindən 2010-cu ildə Kərimova (İbrahimova) Məsumə İslam qızına verilmiş BB-II-092661 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 44 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Babayev Ridan İsmayıl oğluna verilmiş E-203326 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**C.Naxçıvanski adına Hərbi Liseyi** 1998-ci ildə bitirmiş Hüseynov Xankişi Atakişi oğluna verilmiş 256886 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2020-ci ildə Sarıyev Samir Yaşar oğluna verilmiş C-080081 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş İsrayılov Aqil Zeynal oğluna verilmiş A-055030 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** Yusifcanlı kənd tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Əsgərova (Mulançayeva) Nəzakət Nizami qızına verilmiş 016943 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 82 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Cabbarov Elnur İlyas oğluna verilmiş A-189721 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 271 nömrəli tam orta məktəbin IX sinfini 1991-ci ildə bitirmiş Məmmədov Namiq Qafar oğluna verilmiş ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Dəmirova Naibə Nuhbala qızına verilmiş B-272726 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Elm və Təhsil Mərkəzi “Təfəkkür” Universiteti** tərəfindən 2008-ci ildə Quliyeva Aysin Fazil qızına verilmiş B-136848 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 8 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Əliyev Adil Namiq oğluna verilmiş B-669660 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Bəhrəmtəpə qəsəbə ümumi orta ümumtəhsil məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Abdullayeva İmamə Rafiq qızına verilmiş B-611888 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 149 nömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Zeynalov Rəhman Tərlan oğluna verilmiş A-771525 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1993-cü ildə Ağayeva (Hacıyeva) Lalə Cəbrayıl qızına verilmiş ЦВ-838313 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 5 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Dəmirova (Musayeva) Mehriban Nuhbala qızına verilmiş B-065880 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Girdəni kənd tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Qasımov Rasim Təhməz oğluna verilmiş B-444339 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Xanlıqlar kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Həmişəyeva Günel Hafis qızına verilmiş B-326815 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 15 nömrəli tam orta məktəbi (indiki Texniki və humanitar fənlər liseyi) 2005-ci ildə bitirmiş Əmrahova Günay Araz qızına verilmiş B-181694 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar Peşə Liseyini** 2023-cü ildə bitirmiş Ömərov Nofel Seyfəl oğluna verilmiş E-572984 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar şəhər** 6 nömrəli tam orta ümumtəhsil məktəbi 1993-cü ildə bitirmiş Məmmədova Könül Aydəmir qızına verilmiş A-034036 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Qalacıq kənd tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Babayeva Diana Əli qızına verilmiş B-086245 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2017-ci ildə İmranlı Cavid Mahir oğluna verilmiş A-146256 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 132 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Əlizadə Tural Fuad oğluna verilmiş A-574153 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Baza Tibb Məktəbi** tərəfindən 1987-ci ildə Bəkirova Dilbər Kərim qızına verilmiş ЛТ-021176 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 242 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş İsmayılova Arus Etibar qızına verilmiş A-014373 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 181 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Hüseynov Şahin Namiq oğluna verilmiş E-458706 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 4 nömrəli xarici dil təmayüllü məktəb-liseyi 2016-cı ildə bitirmiş Rzayev Ələsgər İlham oğluna verilmiş A-539696 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Cabirzadə Cabir Əzizağa oğluna verilmiş A-062510 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Piral kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Muradova Sonya Ramiz qızına verilmiş A-616502 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar şəhər** 6 nömrəli tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Sadıqov Ziya Ramiz oğluna verilmiş B-649992 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Şirvanlı kənd tam orta ümumtəhsil məktəbi 2018-ci ildə bitirmiş Mahmudov Ayaz Beybut oğluna verilmiş E-091696 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Ceyranbatan qəsəbə tam orta məktəbi 1990-cı ildə bitirmiş Qocamanova Rəna Şahmar qızına verilmiş AK-565293 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 1 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş İsayeva Xəyalə Vahid qızına verilmiş A-125383 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xəzər Universiteti** tərəfindən 2020-ci ildə Məmmədov Kamran Natiq oğluna verilmiş C-066111 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Maqov kənd tam orta məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Muhumayev Nurəddin Abakar oğluna verilmiş A-218389 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Danaçı kənd 2 nömrəli tam orta məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Qurbanov Muhuma Fazil oğluna verilmiş A-299065 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Maqov kənd tam orta məktəbi 1987-ci ildə bitirmiş Mohumayev Nəsrəddin Hacımuhuma oğluna verilmiş AK-330533 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** inteqrasiya tipli internat məktəbi 2000-ci ildə bitirmiş Laçınov Mahmud Əli oğluna verilmiş A-447595 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Aşağı Tala kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Vanatiyev Vasif İbrahim oğluna verilmiş A-0589 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Dünyamalılar kənd tam orta məktəbi 1996-cı ildə bitirmiş Quliyev Hikmət Əlövsət oğluna verilmiş 043074 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 187 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Kərimov Vüqar Şakir oğluna verilmiş B-597741 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin** IX sinfini 2024-cü ildə bitirmiş Xasiyev Ayxan Elxan oğluna verilmiş C-726949 nömrəli ümumi orta təhsil haqqında fərqlənmə attestatı itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2024-cü ildə Cəbrayılov Anur İnqilab oğluna verilmiş C-233191 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** Evdə-fərdi təhsil məktəbi 2016-cı ildə bitirmiş Zeynalova Səbinə Məcid qızına verilmiş A-527409 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Girdəni kənd tam orta ümumtəhsil məktəbini 1995-ci ildə bitirmiş Ağayev Salman Məhəmməd oğluna verilmiş 114 nömrəli tam orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Bədəlan kənd tam orta ümumtəhsil məktəbini 1988-ci ildə bitirmiş Səmədova Təzəgül Əlibala qızına verilmiş A-445759 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Mollaoba kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Muxtarova (Rzazadə) Gülşad Şirvan qızına verilmiş A-341465 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayon** Qumlaq kənd tam orta ümumtəhsil məktəbini 1987-ci ildə bitirmiş Ədilov Habil Fətəli oğluna verilmiş AK-345151 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı şəhər** 10 nömrəli tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Garayeva Fatimə Ədalət qızına verilmiş E-237142 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Sabirkənd kənd tam orta ümumtəhsil məktəbi 1993-cü ildə bitirmiş Allahverdiyev Famil Məmməd qızına verilmiş 360408 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 193 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Nuriyeva Lamiyə Sahib qızına verilmiş B-364789 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 11 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Məmmədova Ləman Rövşən qızına verilmiş E-578824 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xocavənd rayon** Tuğ kənd 1 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Əvəzli Davud Müşfiq oğluna verilmiş A-486644 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 80 nömrəli tam orta məktəbin IX sinfini 1991-ci ildə bitirmiş İbrahimov Zaur Məlikəjdər oğluna verilmiş 859716 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Aşağı Tala kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1996-cı ildə bitirmiş Rəcəbov Vüqar Ramazan oğluna verilmiş A-099654 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.